www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 24 yanvar 2017-ci il Çərşənbə axşamı № 15 (6629) Qiyməti 60 qəpik

## Xəbər

### Şamaxıda qardaş ər evindən acıq edib gedən bacısını öldürdü

yazısı səh.2-də

## Gündəm

### AŞ PA ermənilərin arzusunu gözündə qoydu



**Elxan Süleymanov:** "Assambleya düşmənlərimizin cəhdini dəstəkləməkdən imtina etdi"; Ukrayna parlamentinin Azərbaycan əsilli deputatı AŞ PA-nın vitse-prezidenti seçildi

yazısı səh.5-də

### Prezident hərbi şəhərciyin açılışında mühüm açıqlamalar verdi

yazısı səh.5-də

### Vitse-prezidentlərin təyinatı daha iki ay yubana bilər

yazısı səh.4-də

### Müxalifətdən Polad Bülbüloğluna qınaq

yazısı səh.6-da

### "Trampın prezidentlik fəaliyyəti faciəvi ola bilər" - tanınmış politoloq

yazısı səh.10-da

### Səfirin işdən qovdurduğu jurnalistlə bağlı qalmaqal səngimir

yazısı səh.6-da

*Hafiz Hacıyev:*

### "Elmar Məmmədyarovun apardığı siyasətin sonluğu belə olmalı idi"

yazısı səh.10-da

### "Lənkəranski"ni ələ vermiş "qanuni oğru" "cənnətə" göndərildi

yazısı səh.13-də

### Dolların rəsmi məzənnəsi 1.90-a yaxınlaşır

yazısı səh.2-də

### Paytaxtda mənzildən içərisində 40 min dollar və 30 min avro olan seyf oğurlandı

yazısı səh.14-də

### 1 saylı həbsxanada dustaqlar bahalığa etiraz edib-iddia

yazısı səh.13-də

## İrəvan müharibəni seçir, danışıqlar sıfırlanır - səbəb

# PREZİDENT ƏLİYEV LAVROVA VƏ SƏRKİSYANA SƏRT CAVAB VERDİ

Ölkə başçısından işğalçı və havadarlarına sərt ismarış: "Dağlıq Qarabağa heç vaxt müstəqillik verilməyəcək, kimsə bunu gözləyirsə, əbəs yerə gözləyir"; Rusiya baş diplomatının Qarabağ yorumundan ruhlanan erməni prezident isə təxribatçı mövqeyini gücləndirib; **erməni nəşri:** "Hakimiyyət o qədər qudurub ki, əsgərin payına da göz dikir..."




yazısı səh.7-də

## Türkiyə MİT-in azərbaycanlı zabitinin sensasion həyat və ölüm hekayəsi - Hiram Abas

"Kurtlar Vadisi"ndə Aslan Akbey obrazı kimi təqdim olunan əfsanəvi kəşfiyyatçının qətli, üstündən 27 il keçməsinə rəğmən, hələ də açılmır

yazısı səh.11-də



*Vahid Əhmədov:*

### "İl boyu əmək haqqı və pensiyalar artırıla bilər"

yazısı səh.4-də



*Səidə Qocamanlı:*

### "ABŞ-dakı həbslər göstərdi ki, hər bir ölkədə azad sözə qarşı dözümsüzlük var"

yazısı səh.12-də



*Qənirə Paşayeva:*

### "Mətbuat məni kimin vəzifəsinə qoyursa, həmin adam mənimlə soyuq danışmağa başlayır"

yazısı səh. 8 və 9-da

YENİ MÜSAVAT
N 15 (6629) 24 yanvar 2017



# “Prokuror oğlunun 10 min borcunu otağında ödədi” - Çovdarovun məhkəməsi davam edir

**Sabunçu Rayon Məhkəməsində ləğv edilmiş MTN-in generalı Akif Çovdarov və digər 3 nəfərin cinayət işi üzrə məhkəmə prosesi yanvarın 23-də davam etdirilib. Musavat.com xəbər verir ki, hakim Həbib Həsənovun sədrliyi ilə keçirilən proses zərərçəkmiş Bədəlov Zakir Dilənçi oğlunun epizodu üzrə davam edib. Məhkəmədə şahidlər ifadə verib.**

Digər bir şahid isə zərərçəkmiş Neman Kərimovun epizodu üzrə dindirilib.

Qeyd edək ki, sabiq polis əməkdaşı N.Kərimov 2009-cu ildə dayısı oğlu Elvin Mövsümov və 2 qız tanışı ilə birlikdə “Elit” hotelində istirahət edərkən MTN maskalıları tərəfindən saxlanıldıqlarını və nazirliyə gətirildiklərini deyib. O, MTN-də polkovnik Səlim Məmmədov və Elçin Çıraqovun ondan 250 min tələb etdiklərini, sonda isə 80 minə razılaşdıqlarını söyləyib. MTN-ə gətirilmə səbəbi kimi isə 30 min borclu olduğu Sevinc Rüstəmovanın ondan şikayət etməsini göstərib.

Məhkəmədə ifadə verən Sevinc Rüstəmova bəzi maraqlı məqamlara toxunub. O, zərərçəkmiş kimi tanınan Neman Kərimovun ondan 30 min manat borc aldığını deyib. Və əlavə edib ki, N.Kərimov həmin pulun 10 minini Binəqədi rayonunun sabiq prokuroru olmuş Mirələkbər Seyidovun oğlu üçün alıb.

**Pulunu geri ala bilməyən Sevinc Rüstəmova buna görə sabiq prokurorun yanına getdiyni söyləyib:** “Mən prokurorun yanında oldum. Ona baş verənləri danışdım. Mirələkbər Seyidov da Nemana zəng edib, yanına çağırdı. Ondan soruşdu ki, oğlu üçün 10 min məndən pul alıbmı? Neman da təsdiqlədi. Prokuror oğlu üçün alınan 10 min manatı verdi. Nemanın isə 20 min borcu qaldı”.

Qalan pulunu ala bilməyən S.Rüstəmova MTN-ə müraciət etdiyini deyib.

Bildirək ki, A.Çovdarovla birlikdə müttəhimlər kürsüsünə ləğv edilmiş MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq işçisi, polkovnik Səlim Məmmədov, MTN-in sabiq idarə rəisi, mayor Akif Əliyev və keçmiş şöbə rəisi Orxan Osmanov da çıxarılıb.

Günün ikinci yarısında zərərçəkmiş şəxs qismində Hafiz Abekarov ifadə verib.

Hazırda Nəsimi rayon İcra Hakimiyyətində Hüquq Şöbəsinin müdiri işləyən H. Abekarov 2014-cü ildə MTN-ə çağırıldığını deyib. Bildirib ki, hər hansı təzyiqlə üzləşməyib və nəyə görə zərərçəkmiş qismində tanındığını bilmir. Onun sözlərinə görə, Mübariz Məmmədovla Rafiq Tağıyev adlı şəxslərin arasında torpaq alqı-satqısı olub. Mübariz Məmmədov MTN-ə şikayət edərək pulun H. Abekarova çatdığını deyib. H. Abekarov da bu məsələnin araşdırılması ilə bağlı nazirliyə dəvət edilib. O, həmin məsələdən xəbərsiz olduğunu deyib.

Vəkil S. Rəsulov jurnalistlərə açıqlamasında bildirib ki, A. Çovdarovun səhhətində problemlər var və o, iclasda tez-tez dərman qəbul edir.

Məhkəmə prosesi yanvarın 25-də davam edəcək.

## “Qaya Mətbuat Yayımı” MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**“Yeni Müsavat” - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

# Daha iki jurnalist mühacirət edib

**Son iki gündə tanınmış iki azərbaycanlı jurnalist-redaktorun ölkəni tərk etməsi, mühacirət etməsi ilə bağlı xəbər yayılıb. Xəbərlərdən birini bakipost.az saytı yayıb. Saytın yazdığına görə, “Azadlıq” qəzetinin redaktoru Rahim Hacıyev ailəsi ilə birlikdə Fransaya, rəhbərlik etdiyi qəzetin baş redaktoru Qənimət Zahidin yanına gedib. R.Hacıyevin yaxın günlərdə Hollandiyaya yollanacağı və orada qaçqın statusu almaq üçün müraciət edəcəyi bildirilir.**



Rahim Hacıyev



Çingiz Sultansoy

Rahim Hacıyev Qənimət Zahid Fransaya köçəndən sonra “Azadlıq” qəzetinə faktiki rəhbərlik edirdi. O, son vaxtlar bir neçə dəfə qəzetin həbsdə olan yayım direktoru Faiq Əmirlinin işi ilə bağlı istintaqda dindirilib.

“Azadlıq” qəzetinin çapı 2016-cı ilin noyabrından dayandırılıb.

“Yeni Müsavat” isə xatırladır ki, ötən həftə bəzi media orqanlarında R.Hacıyevin Fransaya getməsi, orda qəzetin baş redaktoru Qənimət Zahidlə qəzetə ayrılan maliyyə ilə bağlı mübahisə etməsi, hətta küçədə baş verən mübahisəyə polisin də müdaxilə etməsi xəbərləri yayılmışdı. Həmin vaxt Q.Zahid “Yeni Müsavat”a müsahibəsində bildirmişdi ki, “Fransdada dava düşdü, polis kimlərisə deportasiya elədi kimi düşüncəsiz dezinformasiyaları şərh etmək isə mənasız bir işə daha mənasız zaman israfıdır”. Q.Zahid eyni zamanda onu da demişdi ki, R.Hacıyev Fransaya internet təhlükəsizliyi ilə bağlı təlim üçün gəlib.

Daha bir köç xəbəri isə Azərbaycanın tanınmış jurnalisti Çingiz Sultansoyla bağlıdır. Onun da Almaniyaya getməsi, orda sığınacaq almaq üçün müraciət etməsi yayılan xəbərlər sırasındadır. Məlumata görə, jurnalist artıq qaçqınların ilkin sığınacağına, qaçqın düşərgəsinə yerləşib.

“Yeni Müsavat” yada salır ki, Ç.Sultansoyun ölkədən getməsi ilə bağlı xəbərlər 2016-cı ilin mart ayından yayılmışdı. Həmin vaxt bizə danışan Ç.Sultansoy müalicə üçün Türkiyəyə getdiyini, əməliyyat lazım olmadığını, müalicənin yetərli olduğunu demişdi. Amma aradan az qala 1 ilə qədər ötən müddətdə Ç.Sultansoy imzası və özü Azərbaycan mediasında görünməyib. Bu da onun mühacirət xəbərini inandırıcı edir. Jurnalistin sosial şəbəkədəki ən axırıncı statusu isə 2016-cı ilin iyun ayına təsadüf edir. O vaxtdan bəri Çingiz bəy sosial şəbəkədə aktivlik göstərməyib, amma profilini də bağlamayıb.

❑ Sevinc TELMANQIZI



# Şamaxıda qardaş ər evindən acıq edib gedən bacısını öldürdü

**Şamaxı rayonunda dəhşətli qətl hadisəsi törədilib. APA-nın yerli bürosunun xəbərinə görə, hadisə yanvarın 23-də səhər saatlarında Şamaxı şəhərində qeydə alınıb.**

Şamaxı sakini, 1977-ci il təvəllüdlü Yolçuyev Rafael Səbrxan oğlu ailə münaqişəsi zəminində aralarında baş verən dava zamanı bacısı, 1981-ci il təvəllüdlü Arzuxanova Yasəmən Səbrxan qızını boğaraq öldürüb.

Qətli törədən şəxs tutularaq istintaqa təhvil verilib. Faktla bağlı Şamaxı Rayon Prokurorluğu tərəfindən cinayət işi açılıb, araşdırma aparılır.

Qətlin qısqanclıq zəminində törədildiyi müəyyənləşib.

Yerli sakinlərin dediyinə görə, ailəli olan Yasəmən Arzuxanova həyat yoldaşı ilə mübahisə etdikdən sonra Bakıya gəlib. Bundan qəzəblənən Rafael Yolçuyev bacısını Bakıdan apararaq, qətlə yetirib və polisə könüllü təslim olub.

Qadının iki övladı qalıb.



# İsmayıllıda maşın körpüdən çaya düşüb, ata ölüb, oğlu ağır xəsarət alıb

**İsmayıllı rayonunda ölümlə nəticələnən avtomobil qəzası baş verib. APA-nın yerli bürosunun xəbərinə görə, hadisə dünən axşam saatlarında İsmayıllı-Qalacıq-İstisu avtomobil yolunda qeydə alınıb.**

Qəbələ rayon sakini, 1962-ci il təvəllüdlü Ağaməmmədov Ağaməmməd Əliheydər oğlu idarə etdiyi 36-BG-893 dövlət nömrə nişanlı, “QAZel” markalı yük avtomobili ilə Qalacıq kəndinin ərazisində, Göyçay çayı üzərindəki körpüdən keçərkən yolun buz bağlaması səbəbindən idarəetməni itirib və maşın yoldan çıxaraq çaya düşüb.

Hadisə zamanı sürücü Ağaməmməd Ağaməmmədov aldığı ağır xəsarətlər səbəbindən hadisə yerində dünyasını dəyişib, onun oğlu, 1992-ci il təvəllüdlü Ağaməmmədov Pərviz Ağaməmməd oğlu isə ağır bədən xəsarətləri ilə İsmayıllı rayon Mərkəzi Xəstəxanasına yerləşdirilib.

Hadisə zamanı “QAZel”in yük yerindəki iki baş iribuynuzlu heyvan yüngül xəsarət alıb.

Qeyd edək ki, ata və oğlu mal-qara alveri ilə məşğul olub, İstisu kəndindən aldıqları heyvanları Qəbələyə aparарkən hadisə baş verib.

Faktla bağlı İsmayıllı Rayon Polis Şöbəsi tərəfindən araşdırma aparılır.

# Dolların rəsmi məzənnəsi 1.90-a yaxınlaşır

**Azərbaycan Mərkəzi Bankı (AMB) yanvarın 24-nə olan USD/AZN rəsmi məzənnəsini açıqlayıb. AMB-dən “APA-Economics”ə verilən məlumata görə, USD/AZN rəsmi məzənnəsi 1,8559 səviyyəsində müəyyən olunub.**

# Məcburi köçkünlər üçün vahid aylıq müavinət müəyyən edilir

**Azərbaycan prezidenti İlham Əliyev məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin müəyyən edilməsi haqqında fərman imzayıb.**

APA-nın məlumatına görə, fərmanda deyilir: “Dövlət büdcəsindən məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi üçün ayrılan vəsaitin ünvanlılığının təmin edilməsi və çatdırılma mexanizminin sadələşdirilməsi məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün yemək xərci müavinəti, habelə kommunal və digər xidmətlər üzrə dövlət büdcəsindən ödənişlər əvəzinə 2017-ci il 1 yanvar tarixindən hər bir məcburi köçkün və onlara bərabər tutulan şəxslər üçün 36,0 (otuz altı) manat məbləğində vahid aylıq müavinəti müəyyən edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bu Fərmanın 1-ci hissəsində göstərilən vahid aylıq müavinətin şamil ediləcəyi kontingenti və müavinətin ödənilməsi qaydasını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, “Azərişıq” Açıq Səhmdar Cəmiyyəti və “Azərsu” Açıq Səhmdar Cəmiyyəti məcburi köçkünlərin məskunlaşdığı yerlərdə sayğacların quraşdırılmasını qısa müddətdə təmin etsin".

# Tramp 80 ölkədəki səfiri geri çağırdı, Azərbaycandakı elçiyə isə dəymədi

**ABŞ-ın yeni prezidenti Donald Tramp vəzifəsinin icrasına başlayandan dərhal sonra Amerikanın xarici ölkələrdəki təxminən 80 səfirini başqa diplomatla əvəz etmədən vəzifədən çıxarıb.**

Virtualaz.org bildirir ki, bu barədə «The Independent» nəşri yazıb.

Məlumata görə, Tramp tələb edib ki, sabiq prezident Barak Obama tərəfindən təyin edilmiş bütün ABŞ səfirləri yanvarın 20-də günortaya qədər öz postlarını ləngimədən tərk etsinlər.

Bununla belə, həmin qərar ABŞ-ın Azərbaycandakı səfirinə, necə deyərlər, toxunmayıb.

“Səfir Robert Sekuta ixtisara salınmış diplomatların siyahısına daxil deyil. O, prezident Obamanın təyinatı yox, karyera diplomatıdır, buna görə də Sekuta Azərbaycanda öz fəaliyyətini davam etdirəcək”,-deyə ABŞ səfirliyindən virtualaz.org-a bildiriblər.

YENİ MÜSAVAT
N 15 (6629) 24 yanvar 2017

**Ölkədə baş verən devalvasiyaların və böhranın fonunda işsizlər ordusunun sıraları genişlənir. Neftin qiymətinin kəskin ucuzlaşması nəticəsində ölkənin gəlirlərinin azalması iş yerlərində ixtisarlara və bir sıra müəssisələrin qapadılmasına, inşaat sektorunda durğunluğa gətirib çıxardı. Hakimiyyət bu durumdan mümkün qədər ağrısız keçmək üçün bir sıra addımlara getsə də hələ problemin ciddiliyi qalır.**

# "Müxalif partiyalarının sıraları narazı elektorat sarıdan güclənəcək"

## Partiya sədrindən proqnoz; "Sosial-iqtisadi vəziyyətin gərginləşməsi, şübhəsiz, siyasi fəallığı yüksəldə bilən tətikləyici faktordur"

Bəzi iqtisadçılar, siyasilər iddia edirlər ki, bu proses daha ağır xarakter ala bilər. İqtisadi böhrana qarşı Nazirlər Kabinetinin xüsusilə ciddi tədbirlər görməsi zərurəti olduğu halda hökumət ləngiyir. Nazirlər Kabinetinin zəif fəaliyyəti nəticəsində əhalinin içərisində işsiz insanlar və aztəminatlı ailələrin sayı çoxalır. Artıq ən həssas sosial təbəqələrdən sayılan məcburi köçkünlərə verilən maddi imtiyazları da hökumətin ləğv etməyə hazırlaşdığı xəbərləri gəlməkdədir.

Bir tərəfdən isə ölkədə durmadan bahalaşma davam edir. İdxal olunan məhsulların qiymətində artım daha fantastik müşahidə olunur ki, bütün bunlar da ailələrin dolanışı üçün əlavə problemlər yaradır.

Bəzi siyasətçilər hesab edir ki, işsizlik, sosial-iqtisadi vəziyyətin ağırlaşması istər-istəməz insanlarda narazılıq yaradır, narazıların sayını artırır. Bu isə geniş xalq kütlələrinin müxalif partiyalar ətrafında birləşə biləcəyi ehtimalını artırır.



Əli Əliyev

Bəs proseslərin bu məcrada inkişafı həqiqətən də insanları müxalif partiyalara doğru "qova" bilərmi?

**VİP sədri Əli Əliyev bildirdi ki, sosial-iqtisadi vəziyyətin gərginləşməsi, şübhəsiz, siyasi fəallığı yüksəldə bilən tətikləyici faktordur. Bu, bütün dünyada belə olub və bizim ölkəmiz də istisna deyil. Artıq bunun işartıları sezilməkdədir:** "Artıq sadə insanlarla yanaşı, izafi pullara vərdiş etmiş daha mütəşəkkil çevrələr də maliyyə qıtlığı şəraitində narahat olmağa başlayıblar. Obyektiv olaraq da, ətraflarında dolandırdıqları təbəqələr də ehtiyac duymağa başlayıblar. Qrupların maraq dairələri də bu hərəkətlənməyə təsir göstərir. Bütövlükdə isə insanların güzəranı ağırlaşıb, bunu hakimiyyətə taxın deputatların da dilindən son vaxtlar eşidirik. Devalvasiya, onun törətdiyi inflyasiya cəmiyyətin bütün seqmentlərini vurub. Belə şəraitdə hökumətin tərəddüdlü mövqeyi situasiyanı ağırlaşdırır. İqtidar 2 seçimi ayarlayır: böhranı törətmişləri müxalifətin ağuşuna atmaq, yoxsa böhran müəlliflərini içəridə tutaraq, vəziyyəti normallaşdırmaq. Hələlik ikinci yol ortadadır. Bunun da davam etməsi ölkəni spontan qığılcımlara, proseslərə gətirə bilər. Bu, arzu olunmayan ssenaridir. Proses arzuolunmaz sosial partlayışa gətirməsə, təbii ki, narazılar etirazçıya çevriləcək və müxalifətin sıralarına bu durum təsir edəcək, partiyaların sıraları narazı elektorat sarıdan güclənəcək. Əslində bu, dövlətin ziyanına olmaz. Çünki proses spontan sosial partlayışsız keçəndə, kənar təhdidlərdən qorunmaq, dövləti qorumaq mümkün olur. İnsanların radikal meylli qruplara meyl etməsindən qorxmaq lazımdır, sivil müxalifətə üz tutmasından ehtiyatlanmaq lazım deyil".

❑ **E.SEYİDAĞA**

# Astanada cücərən sülh ümidləri

## Tərəflər sülh və atəşkəs arzusundadır; BMT isə "ikinci Liviya istəmirik" deyir, ilk dəfə Qazaxıstanda Suriya müxalifəti və hökuməti eyni masa arxasında danışıqlara qatılıb

**Yanvarın 23-də Astanada Suriya münaqişəsinin həlli danışıqları başlayıb. "Rixos President" hoteldə başlayan toplantıya Rusiya, Türkiyə, İran heyətləri, o cümlədən Suriya hökuməti, müxaliflər və müşahidəçi ölkə təmsilçiləri qatılıb.**



İlk dəfə olaraq məhz Astanada Suriya müxalifəti və iqtidarı bir masa arxasında əyləşərək danışıqlar aparıblar. Daha əvvəldən də elan olunub ki, Astana görüşü bir sutka davam edəcək. Ancaq hadisə yerindən xəbər verən beynəlxalq media orqanlarının təmsilçiləri danışıqların bir neçə gün uzana biləcəyini deyir.

Suriya hakimiyyətini danışıqlarda hökumətin BMT nümayəndəsi Bəşər Cəfəri təmsil edir. Onun rəhbərlik etdiyi heyətə həmçinin Dəməşqin Moskva elçisi də daxildir. Bəşər Cəfəri "Sputnik"ə bildirib ki, danışıqlarda əsas hədəf qüvvədə olan atəşkəs rejimini, hökumət və silahlılar arasında etimadı gücləndirməkdir. Açılışdan sonra toplantı mediaya qapalı keçirilib.

Yeri gəlmişkən, Astana görüşünün birgə bəyannaməsinin layihəsi məlum olub. İlkin layihədə Rusiya, İran və Türkiyə hökumətləri Suriyadakı silahlı qruplara müraciət edərək İŞİD və keçmiş adı "ən-Nusra" olan Şamın Fəth Cəbhəsi qruplarından ayrılmağa çağırıb. Bundan başqa, hər 3 ölkənin adıçəkilən terror təşkilatlarına qarşı birgə mübarizə aparmağı planladığı bəyanatda yer alır. Sənəddə tərəflərin Suriyada savaşan qrupların və hökumətin BMT-nin Suriya münaqişəsinin həlli ilə bağlı 2254 saylı qərarı çərçivəsində danışıqlar başlatması çağırışı da yer alır. Eyni zamanda təminatçı ölkələr (Rusiya, Türkiyə və İran) fevral ayında keçirilməsi planlaşdırılan Suriya münaqişəsinin həlli ilə bağlı Cenevrə danışıqlarına qatılmanı da dəstəkləyir.

Astana danışıqlarında silahlı müxalifləri təmsil edən "İslam Ordusu" qruplaşmasının rəhbərlərindən olan Məhəmməd Alluş deyib ki, atəşkəsi möhkəmləndirmək üçün dünyanın "o başına" getməyə hazırdır.

Ümumi toplantı yanvarın 23-də yerli vaxtla saat 12.40-da başa çatıb, yerli heyətlər salonu tərk edib. Dəhlizdə suriyalı siyasi və hərbi müxaliflər arasında müzakirələr aparılıb. Bundan sonra elan olunub ki, danışıqlar ayrı-ayrı otaqlarda heyətlərlə müzakirələr şəklində davam edəcək.

Suriya heyətinin rəhbəri Bəşər Cəfəri ümumi salonda etdiyi çıxışında müxaliflərin provokativ çıxışlar etdiyini, silahlı müxalifətin təmsilçisi Məhəmməd Alluşun "ən-Nusra" qruplaşmasının müharibə cinayətlərini müdafiə etdiyini bildirib. Eyni zamanda Suriya heyəti rəhbəri Astanada açılış iclasının əsasən təşkilati məsələlərə həsr olunduğunu, gündəmin hələlik hazır olmadığını deyib. Cəfəri Astanada uğurlu nəticəyə nail olmaq istədiklərini, danışıqların uğursuz nəticələnməsində maraqlı olmadıqlarını deyib.

BMT-nin Suriya üzrə xüsusi təmsilçisi Stefan de Mistura çıxış edərək bildirib ki, ilk dəfə Suriya müxalifəti və hökumət eyni masa arxasında danışıqlara oturub. Bu səbəbdən də o, Astana görüşündən ümidlərinin olduğunu bildirib. Mistura deyib ki, Astana danışıqları fevralda yenidən başlayacaq Cenevrə danışıqları ilə bağlı ümidləri artırır. Suriyanın ikinci Liviya olmasını istəmədiklərini deyən BMT xüsusi təmsilçisi eyni vəziyyətin yaranmaması üçün əllərindən gələni edərək həll variantına nail olmağa çağırıb. Eyni zamanda o, Rusiya, Türkiyə və İrana Suriyada atəşkəsin möhkəmlənməsi və nəzarət mexanizmini yaratmağa çağırıb.

**Astana danışıqlarının gecə və sabah davam etməsi gözlənilir.**

❑ **KƏNAN**

# Jirinovskinin ikinci zühuru...



**Hüseynbala SƏLİMOV**

**Əgər əvvəllər D.Tramp və onun Amerika siyasətinə gətirə biləcəyi "yenilik"lər haqda daha ciddi yazılar yazmasaydım, bu yazını yazmaq qərarına gəlməzdim, ən azı tərəddüd edərdim...**

Amma indi bir az rahatam. Bu mövzuda çox ciddi yazılar yazmışam və hətta D.Trampın bəyanatlarında və çıxışlarında ciddi məntiq də axtarmağa çalışmışam. Deyim ki, bu cəhdlərim də tamam uğursuz və səmərəsiz olmayıb, çünki hətta ən qeyri - adi və gözlənilməz fikirlərdə belə axtaranda məntiq tapmaq olur...

Üstəlik, yazının başlığında bir ironiya sezilsə də deyim ki, mən V.Jirinovskini də heç vaxt ağılsız hesab etməmişəm. Rusiya cəmiyyətində bəlli bir siyasi gözlənti və obraz var. Jirinovski də neçə illərdir ki, həmin bu rolu uğurla oynayır.

Əslində o, nə millətçidir, nə də başqa buna bənzər kəs... Sadəcə, bilir ki, Rusiya cəmiyyətinin 90 faizi imperialist və şovinistdir. Ona görə də bu ovqatı, gözləntini siyasi rol kimi gözəl oynayır. Hakimiyyətdəkilərə də bu sərf edir, çünki belə bir siyasi rola başqa bir ciddi adam iddialı olsaydı bu onlar üçün böyük problemlər yaradardı...

Həm də Jirinovski ilə Tramp arasında hər hansı ideoloji bənzərlik yoxdur. Trampın çıxışları "yırtıcı imperializm" qoxumur, bu daha çox bir biznes adamının, işgüzar şəxsin ölkəsi ilə bağlı düşündükləridir. Amma bütün hallarda oxşarlıq da yox deyildir və bu oxşarlıq daha çox onların davranışındadır. Düşünürəm ki, bununla çoxu razılaşar, ən azı ona görə ki, D.Tramp lap rəqib partiyanın - demokratların simvolu olan bəlli bir canlı qədər "səmimi"dir. Bir az da çətin proqnozlaşdırılandır, hər bir an ondan hansısa gözlənilməz söz, bəyanat eşitmək olar...

Həm də mənim öz təcrübəm də vardır. İllər mənə də çox şey öyrədib. Təbii, populist insanlara hamı bir az ehtiyatla yanaşır, çünki populizmdə bir az avantürizm də vardır.

Üstəlik, xalq adından çox danışan adamlar məni həmişə ehtiyatlandırıbdır. Uzağa niyə gedək?.. Elə bizim özümüzün hakimiyyətimiz də xalq adından o qədər danışır ki, düşünərsən, daha bu xalqı bunlar qədər sevən yoxdur!..

Hətta bəzən adama elə gəlir ki, bunlar hər şey kimi xalqı da hələ 90-cı illərdə özəlləşdiriblər. Ona görə də ilan vuran qara çatıdan qorxan kimi mən də xalqdan çox danışanlardan qorxuram...

Baxın, Tramp andiçmə mərasimində nə dedi? Buyurdu ki, bu gün hakimiyyət Vaşinqtondan, Ağ Evdən xalqa qayıdır!.. Ucuz populizm və hətta bayağı siyasətbazlıq deyil, nədir bu?..

Gəlin, etiraf edək, ABŞ kifayət qədər demokratik ölkədir və soruşsan, Tramp bəlkə də ABŞ-da demokratiyanın harada qurtarması ve ya harada dirəniş görməsi haqda heç təsəvvürə də malik deyil...

Yadınıza gəlirsə, seçkilər ərəfəsində Amerika seçki sistemindən gileylənirdi. Bir ara seçkilərdəki "saxtakarlıq"dan danışırdı. Daha sonra isə seçicilər kollegiyasının ölkədəki seçkilər üçün nə qədər böyük bir "problem" olduğunu deyirdi...

Amma nə oldu? Axırda özü məhz seçicilər kollegiyası tərəfindən seçildi və bu adamın seçkiqabağı bütün "şübhə"ləri, "narahatlıq"ları yalan çıxdı. Amma ki, bircə dəfə belə olsun, özünün necə səhv etdiyini etiraf etdimi? ABŞ demokratiyasının məziyyətlərindən və üstünlüklərindən danışdımı? Əsla...

Ona görə onun davranışında nə qədər məntiq axtarsaq da, onu nə qədər "başa düşməyə" çalışsaq da, bir daha deyirik ki, ABŞ siyasətinə indi Jirinovskiyə bənzər bir adam gəlib. Bunun ölkə və ya dünya siyasəti üçün hansı nəticələri olacaqdır,- çox çəkməz bunu da görərik...

Bir daha deyirik ki, Vladimir Volfoviç heç də ağılsız adam deyildir, amma ən uzağı ağıllı aktyordur, artistdir. Trampın nə qədər artist olub -olmaması haqda heç nə deyə bilmərəm. Bəlkə burada məsələ bir az da qəlizdir - bir gün məlum olacaq ki, Jirinovskidən fərqli olaraq Tramp heç də artist deyil, sadəcə, özü özünü oynayır...

Həm də daha bir qəliz məsələ var. Bütün hallarda xoşbəxtlikdən Vladimir Volfoviç ölkəsinin birinci adamı olmadı. Amma Tramp birincidir və artıq ABŞ prezidentidir. Sadəcə, təskinlik verən budur ki, ABŞ dövləti də maşın kimidir, yararsız hissəni dərhal başqası ilə əvəz etmək olur...

YENİ MÜSAVAT
N 15 (6629) 24 yanvar 2017

**Azərbaycan prezidenti yanvarın 21-də minimum əmək haqqının 116 manata qaldırılması və bütün növ əmək pensiyalarının sığorta hissəsinin artırılması barədə sərəncam imzalayıb. Prezidentin dünən imzaladığı sərəncamlarla bu ildən bütün növ əmək pensiyalarının sığorta hissəsi ötən ilin inflyasiya səviyyəsində indeksləşdiriləcək və minimum aylıq əmək haqqı 116 manat olacaq.**

# "İl boyu əmək haqqı və pensiyalar artırıla bilər"

## Vahid Əhmədov: " İqtisadçıların bu fikirləri ilə razıyam ki, artım cüzidir, ancaq indiki imkan budur"

Prezidentin son fərmanı ilə fərdi uçot sistemində fərdi hesabların sığorta hissəsində toplanmış pensiya kapitalının *(baza hissəsindən çox olan məbləğlərin)* 12,4 faiz artımla indeksləşdirilməsi həyata keçiriləcək. Çünki rəsmi məlumatlara görə, 2016-cı ildə istehlak məhsullarının və xidmətlərin qiymətləri 2015-ci ilə nisbətən 12,4 faiz artıb. Bu isə o deməkdir ki, əgər pensiyası baza və sığorta hissəsindən ibarət olan 1 təqaüdçü 150 manat pensiya alırsa, ondan 110 manat çıxılacaq və yerdə qalan 40 manat sığorta hissəsinə isə 12,4 faiz, yəni 4 manat 96 qəpik indeksləşdirmə tətbiq ediləcək, beləliklə də bu ildən təqaüdçü 154 manat 96 qəpik pensiya alacaq. Bu misal onu göstərir ki, təqaüdün məbləğindən asılı olaraq pensiyalar 5-10 manat diapazonunda indeksləşdiriləcək.

Ekspertlər bunun ölkədə gedən bahalaşma fonunda çox az bir artım olduğunu qeyd edirlər.

İqtisadçı ekspert bu artımı xarici dövlətlərlə müqayisə edərək deyir ki, hətta artımdan sonra Azərbaycanda 1 aylıq minimum əmək haqqının dəyəri ABŞ-da orta hesabla 4 saatlıq, Böyük Britaniyada isə 3 saatlıq minimum əmək haqqı səviyyəsinə çatıb.

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq Komitəsinin üzvü Vahid Əhmədov da "Yeni Müsavat"a açıqlamasında qeyd etdi ki, bu artım yetərli deyil. Deputat ilin ortasında da əmək haqqı və pensiyaların artırıla biləcəyini ehtimal edir:** "Mən iqtisadçıların bu fikirləri ilə razıyam, artım cüzidir. Ancaq indiki imkan budur. Əmək haqqı və pensiyalar artırılanda büdcəyə baxılır. Büdcədə olan vəsaitlərə uyğun olaraq artım nəzərdə tutulur. Bildiyiniz kimi, vəsaitlər də azlıq təşkil edir. Büdcə çətinliklə formalaşıb. Ona görə də artım az olub. Məndə olan məlumata görə, il boyu imkan daxilində bu məsələlərə baxılacaq. Ola bilər ki, ilin ortasında büdcəyə yenidən baxılsın, əmək haqqı və pensiyalar artırılsın. Cənab prezident də dedi ki, maaşlar azaldılmayacaq, əksinə, artırılacaq. Məndə olan məlumata görə, il boyu bu məsələlərə baxılacaq".





**İqtisadçı ekspert Vüqar Bayramov isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu artım qanunvericiliyə əsasən həyata keçirilib:** "Məbləğin kiçik və ya böyük olmasından asılı olmayaraq əmək haqqı və pensiyalarda qiymət artımları müsbət qiymətləndirilməlidir. O baxımdan hökumətin bu addımı olduqca vacibdir. Burada pensiyaların sığorta hissəsinin indeksasiyasından söhbət gedir. Buna görə də qanunvericiliyə əsasən əvvəlki ilin inflyasiya səviyyəsinə görə indeksasiya olunur. O baxımdan, burada fərqli faizin seçilməsi qanuna əsasən mümkün deyil. 2016-cı ildə inflyasiya səviyyəsi necə olubsa həmin rəqəm indeksasiya olunur. Burada məqsəd odur ki, pensiyaların sığorta hissəsi inflyasiya səbəbindən azalmasın, sığorta hissəsini qorumaq mümkün olsun. İnflyasiya səviyyəsi yüksək olan illərdə indeksasiyanın tətbiq edilməsi olduqca vacibdir".

**Ekspertin fikrincə, sığorta hissəsinin indeksasiyası ilə yanaşı 2017-ci ildə pensiya məbləğinin artırılmasına ehtiyac var:** "Bizim müstəqil qiymətləndirmələrimiz də göstərir ki, mövcud maliyyə resursları çərçivəsində pensiyaların bütövlükdə məbləğinin əlavə 15 faiz artırılması mümkündür. Güman edirəm ki, Maliyyə Nazirliyi də pensiyaların 15 faiz artırılması üçün maliyyə mənbələrinin təmin olunmasını həyata keçirməyə çalışmalıdır".

**V.Bayramov diqqətə çatdırdı ki, minimum əmək haqqının artırılması məbləği də olduqca vacibdir:** "Çünki bu həm də digər ödənişlər üçün də vacib kriteriyadır. Belə ki, hər hansı əməyin qarşılığında ödəniləcək minimum səviyyə müəyyənləşdirilir və özəl sektorda belə bu məbləğdən aşağı əmək haqqının ödənilməsi mümkün deyil. O baxımdan, minimum əmək haqqı məbləği olduqca vacibdir.

### Vüqar Bayramov: "Azərbaycanın götürdüyü beynəlxalq öhdəliklərə görə, minimum əmək haqqının mərhələli şəkildə orta aylıq əmək haqqının 60 faizinə çatdırılması lazımdır"

Azərbaycanın götürdüyü beynəlxalq öhdəliklərə görə, minimum əmək haqqının mərhələli şəkildə orta aylıq əmək haqqının 60 faizinə çatdırılması lazımdır. Hökumət gələn ildən etibarən bu istiqamətdə də müəyyən işlər görməlidir. Minimum əmək haqqını artıran zaman bunun həm hökumətin, həm də iş adamlarının öhdəliklərinə necə təsir etdiyinin də müəyyənləşdirilməsi lazımdır. Mənatın mövcud məzənnəsi çərçivəsində 2017-2018-ci illərdə minimum əmək haqqı məbləğinin 150 manata çatdırılmasına ehtiyac var. Biz bunu mərhələli şəkildə həyata keçirməyi təklif edirik. Çünki bu zaman digər öhdəliklərin də optimallaşdırılmasına şərait yaranar. Hökumət bu addımı atmalıdır ki, həm əmək haqlarına təsir göstərsin, həm də özəl sektorun öhdəliklərində çətinlik yaranmasın".

❑ **Nərgiz LİFTİYEVA**

# Vitse-prezidentlərin təyinatı daha iki ay yubana bilər

## Mehman Əliyev: "Yol Xəritəsi"nin həyata keçirilməsi, reformalar və vəzifələrə təyinatlar bir-birinə bağlı məsələlərdir"

**Azərbaycanda 2017-ci illə bağlı bir sıra gözləntilər var. Əsas gözləntilərdən biri vitse-prezidentlərin təyinatı ilə bağlıdırsa, digəri bir ildən çoxdur davam edən "MTN işi" ilə bağlı qurumun sabiq rəhbəri Eldar Mahmudovun həbsi ilə əlaqədardır.**

Əksər ekspertlər mart-aprel aylarında vitse-prezidentlərin təyin ediləcəyini düşünür. Arqument kimi də ötən ilin sentyabrında keçirilən referendumdan sonra prezident İlham Əliyevin 6 aydan sonra struktur dəyişikliklərinə başlanacağı ilə bağlı verdiyi anonslar göstərilir.

E.Mahmudov məsələsinə gəlincə isə hər keçən gün sabiq nazirin həbs olunacağı ilə bağlı xəbərlər yayılır. Doğrudur, indiyə qədər Mahmudov "kəfəni yırtıb". Amma bununla belə, artıq onun da tükəndiyi və azadlıqda qaldığı hər saniyənin dövlətin imicinə zərbə vurduğunu nəzərə alan hakimiyyətin bu məsələni kökündən həll etməkdə qərarlı olduğu vurğulanır.

**"Turan" informasiya agentliyinin rəhbəri Mehman Əliyev bu il də Mahmudovun həbsini gözləmədiyini qeyd etdi:** "Burada söhbət daha böyük məsələlərdən gedir. Rabitə Nazirliyi və MTN-də baş verənlər bir-biri ilə bağlı məsələlərdir. Bunlar xarici dövlətlərin maraqlarına toxunublar, ona görə də belə bir vəziyyət yaranıb. Onların tələbləri ilə bu həbslər baş verdi. Bu baxımdan, onların nəyini cəzalandıracaqlar? Əvvəl dövlətə xəyanət, dövlət çevrilişi söhbətləri ortaya atdılar. Sonradan iqtisadi məsələlərə keçildi, vəzifələrindən sui-istifadə məsələləri də gündəmə gətirildi. 2005-ci ildə də buna bənzər hadisələr baş vermişdi, Əli İnsanov və Fərhad Əliyev məsələsində. Onda da bu məsələlər ortaya atıldı. Amma məhkəməyə çıxanda vəzifədən istifadə etmək, maliyyə və digər məsələlər üzə çıxarıldı".



**M.Əliyev də iki aydan sonra vitse-prezidentlərin təyinatının olacağını düşünür:** "Prezident dedi ki, 6 aydan sonra struktur islahatlarına başlayacağıq. Bu da təxminən mart-aprel aylarına təsadüf edir. "Yol Xəritəsi"nin həyata keçirilməsi, reformalar, bu vəzifələrə təyinatlar bir-birinə bağlı məsələlərdir. İslahatların başlaması təxminən yaz aylarına hesablanıb. Çevik və dərin islahatların aparılmasını hakimiyyətdən gözləmək olmaz. Çünki buna maraqlı deyillər. Amma nəsə etmək məcburiyyətindədirlər. Çünki başqa yol da yoxdur. Hətta prezident və parlament seçkilərindən biri də keçirilə bilər. Hər şey şəraitdən asılıdır. Qərbin təsiri nə qədər güclü olsa, o zaman demək, bu daha realdır. Əgər təzyiq olmasa, hakimiyyətin bu gün təqdim etdiyi "Yol xəritəsi" və islahatlar qaneedici olsa, o zaman seçkilər olmayacaq. Qərb daha çevik islahatların aparılmasını istəyir, amma hakimiyyət uzunmüddətli islahatların aparılmasında maraqlıdır. Lakin hakimiyyət islahatlardan qaçmır, edəcəklərini bildirirlər, sadəcə, tələsdirilməməsini istəyirlər. Buna görə də prezident və parlament seçkiləri tələsik məsələ kimi ortaya qoyulmayacaq. Vəziyyət başqa cür olarsa, prezident və parlament seçkiləri ortaya çıxa bilər".

**İqtisadçı deputat Vahid Əhmədov hesab edir ki, bu ilin ilk rübü üçün vitse-prezidentlər məsələsi öz həllini tapacaq:** "Onların səlahiyyətləri, səlahiyyətlərinin hüdudları bilinməlidir. Ondan sonra bu məsələlər öz həllini tapacaq. Düşünürəm ki, burada yubanma yoxdur. İş onsuz da gedir. Bu bir institut olacaq və onun fəaliyyəti üçün müəyyən sənədlər lazımdır. Onunla bərabər Nazirlər Kabineti də fəaliyyət göstərəcək. Baxaq görək, orada hansı səlahiyyətlər qalacaq".

**Deputat bu il parlament və ya prezident seçkilərindən birinin olacağına inanmır:** "Düşünmürəm ki, indi parlament seçkilərinə ehtiyac olsun. Əvvəla, buna əlavə vəsait xərclənir. Digər tərəfdən, onsuz da parlament işləyir. Sadəcə, cənab prezidentin imzaladığı strateji "Yox xəritəsi" var ki, biz ona uyğun qanunlar qəbul etməliyik".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 15 (6629) 24 yanvar 2017

**Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev yanvarın 23-də Müdafiə Nazirliyinin Abşeron rayonunun Pirəkəşkül qəsəbəsində "N" hərbi hissəsinin yeni inşa edilmiş hərbi şəhərciyinin açılışında iştirak edib.**



# Prezident hərbi şəhərciyin açılışında mühüm açıqlamalar verdi

## İlham Əliyev: "Azərbaycan dünyada nadir ölkələrdəndir ki, öz hesabına yaşayır"; dövlət başçısı Səfər Əbiyevin dövründə ordudakı durumu tənqid etdi





APA-nın məlumatına görə, müdafiə naziri, general-polkovnik Zakir Həsənov prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verib.

Dövlət başçısı əvvəlcə Azərbaycan Ordusunun inkişafında müstəsna xidmətləri olan Heydər Əliyevin büstü önünə gül dəstəsi qoyub.

Yeni hərbi şəhərcik 42 hektar ərazidə yerləşir. Burada tikinti işlərinə 2014-cü ilin mayında başlanıb, ötən ilin sonunda isə yekunlaşıb. Şəhərcikdə zabit, gizir və çavuşlar üçün 9 yaşayış binası inşa edilib. Onlardan 4-ü ailəli, 5-i isə subay hərbi qulluqçular üçündür. Ərazidə ümumilikdə 13 əsgər yataqxanası tikilib. Hərbi şəhərcikdə inzibati, xidməti və texniki binalar da inşa edilib.

İ. Əliyev hərbi şəhərciyin rəmzi açılışını bildirən lenti kəsib.

Hərbi şəhərcikdə ailəli hərbi qulluqçuların yerləşməsi üçün iki və üçotaqlı mənzillərdən ibarət yaşayış binaları inşa edilib. Binalardakı mənzillər yumşaq və bərk mebellər, zəruri inventar və televizorla təmin olunub. Bütün binalara su, elektrik, telefon, internet və televiziya kabeli xətləri çəkilib.

Ərazidə xüsusi tibbi avadanlıqla təchiz edilmiş 76 çarpayılıq, ikimərtəbəli tibb məntəqəsi də tikilib. Burada UZİ, elektrokardioqram, rentgen, diaqnostika, lor, oftalmoloji, stomatoloji, fizioterapiya kabinetləri, laboratoriya yaradılıb.

Hərbi şəhərcikdə bütün avadanlıqla təchiz edilmiş yeməkxana inşa edilib. Dövlət başçısına burada hərbi qulluqçuların istifadə etdikləri ərzaqlar barədə məlumat verilib.

Ərazidə şəxsi heyətin uzunmüddətli yerləşməsi məqsədilə yataq, məişət və xidməti sahələrdən ibarət əsgər yataqxanaları tikilib.

Prezident İlham Əliyevə hərbi hissədəki texnika barədə də məlumat verilib.

Şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, eləcə də hərbi qulluqçuların və onların ailə üzvlərinin asudə vaxtının səmərəli təşkili, təhsil və yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi məqsədilə hərbi şəhərciyin ərazisində 528 yerlik klub inşa edilərək lazımi avadanlıqla tam təchiz olunub. Bundan başqa, ərazidə hərbi qulluqçuların peşə və ixtisas hazırlığının təşkili məqsədilə müvafiq avadanlıq və qurğularla təchiz edilmiş 2 tədris korpusu inşa olunub.

Hərbi şəhərcik yaradılarkən hərbi qulluqçuların idmanla məşğul olmaları diqqət mərkəzində saxlanılıb. Bu məqsədlə burada mini futbol, basketbol, voleybol, həndbol meydançaları, maneələr və qaçış zolaqlarının daxil olduğu idman-məşq qurğuları sahəsi yaradılıb.

Hərbi hissədə müasir avadanlığın quraşdırıldığı hamam-çamaşırxana-qazanxana kompleksi fəaliyyət göstərir.

Hərbi şəhərcikdə yaradılan şəraitlə tanışlıqdan sonra dövlət başçısı hərbi qulluqçularla görüşüb. **Prezident İlham Əliyev hərbçilərə yeni uğurlar arzulayıb.**

**"Beynəlxalq hüquq da bizim mövqeyimizi müdafiə edir. Bir çox mötəbər beynəlxalq təşkilatlar Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qərar və qətnamələr qəbul edib" - deyə prezidenti İlham Əliyev bildirib.**

**Dövlət başçısı qeyd edib ki, BMT Təhlükəsizlik Şurası - dünyanın ən ali orqanı 4 qətnamə qəbul edib və bu qətnamələrdə açıq-aydın göstərilir ki, erməni işğalçı qüvvələri işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmalıdır:** "Əgər kimsə bunu unudubsa, biz bunu yada sala bilərik. Bax, budur bu qətnamələrin əsas mahiyyəti. Ancaq Ermənistan buna məhəl qoymur və işğalçı ölkəyə heç bir təzyiq göstərilmir. BMT Təhlükəsizlik Şurası ilə yanaşı, digər beynəlxalq təşkilatlar - İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası oxşar qərar və qətnamələr qəbul edib. Onlar da kağız üzərində qalıb. Bu, ədalətsizlikdir, bu, beynəlxalq normaların kobudcasına pozulması deməkdir. Ancaq yenə də işğalçı dövlətə heç bir təzyiq göstərilmir. Bu, ikili standartlar siyasətidir. Əfsuslar olsun ki, bizim ölkəmiz uzun illər ikili standartlarla üzləşir. Bəzi yerlərdə BMT Təhlükəsizlik Şurasının qətnamələri bir gün ərzində icra edilir, bizə gəldikdə isə 20 ildən çoxdur ki, bu qətnamələr kağız üzərində qalır və onları qəbul edənlər də buna biganə qalırlar. Belə olan halda Azərbaycan öz gücünü artırmalıdır və artırır".

**"Dağlıq Qarabağın gələcək statusu ancaq vahid Azərbaycan dövləti çərçivəsində mümkün ola bilər. Münaqişənin həlli bundan ibarətdir və Ermənistan rəhbərliyi bunu nə qədər tez anlasa, onlar üçün bir o qədər yaxşı olacaq" - deyə, prezident qeyd edib. O qeyd edib ki, ərazi bütövlüyünün təmin olunması, işğala son qoyulması bu münaqişənin həlli üçün əsas amillərdir:** "Bu məqsədlərə nail olmaq üçün bir daha demək istəyirəm, daha da güclü olmalıyıq və biz bu gün dünya miqyasında böyük təqdirlə qarşılanan güclü Azərbaycan dövləti yaradırıq. Biz öz azad gələcəyimizi qururuq, müstəqil həyatımızı qurmuşuq. Biz 25 ildir ki, müstəqil dövlətik və bir daha demək istəyirəm, heç kimdən heç bir yardım almadan, bəzi başqa ölkələr kimi heç kimin ətəyindən yapışmadan bunu əldə etmişik. Bu gün açığını deməliyik, Ermənistan müstəqil dövlət kimi dünya xəritəsində, sadəcə olaraq, formal mövcuddur. Ermənistan asılı ölkədir, öz gələcəyini özü müəyyən edə bilmir. İşğalçı siyasəti onları bax, bu vəziyyətə gətirib çıxarıb. Onların vəziyyətdən yeganə çıxış yolu qonşularla münasibətləri bərpa etməkdir. Bunun üçün isə işğala son qoyulmalıdır".

**Ölkə başçısı həmçinin bildirib:** "Azərbaycan dünyada nadir ölkələrdəndir ki, öz hesabına yaşayır, heç kimdən asılı deyil, heç kimin maliyyə yardımına ehtiyac duymur. Öz hesabımıza yaşayırıq və ildən-ilə daha yaxşı yaşayırıq. Bütün bu nailiyyətləri biz özümüz əldə etmişik, öz hesabımıza, güclü iqtisadiyyat hesabına. Çünki əgər güclü iqtisadiyyat olmasaydı, biz bütün bu işləri görə bilməzdik. Yaradılan bu hərbi şəhərcik bu gün bizim həm ordumuzun, həm dövlətimizin gücünü göstərir. Bu gün dünyada maliyyə-iqtisadi böhran davam edir. Ancaq buna baxmayaraq, biz bu məqsədlər üçün böyük vəsait ayırırıq və ayıracağıq. Bunu təmin edən güclü iqtisadiyyatdır. İqtisadiyyatda aparılan işlər, islahatlar bizim ordumuzu, dövlətimizi gücləndirir".

**İlham Əliyev öz nitqində orduda Zakir Həsənovdan əvvəlki dövrdə hökm sürən vəziyyətdən də danışıb. Prezident həmin vəziyyəti "çox acınacaqlı" adlandırıb (virtualaz.org).**

**Azərbaycan ordusunda Səfər Əbiyevin dövrü haqda danışan prezident çıxışında deyib:** "Bizim hərbi hissələrimizin vəziyyəti bir neçə il bundan əvvəl tam fərqli idi. Mən xüsusi göstəriş vermişdim ki, bu vəziyyət təhlil edilsin, mənə məruzə olunsun və tədbirlər görülsün. Yadımdadır, bir neçə il bundan əvvəl müxtəlif bölgələrimizdə yerləşən hərbi hissələrin fotoşəkilləri mənə təqdim ediləndə, əlbəttə ki, mənzərə çox acınacaqlı idi.

Yarıdağılmış binalar, yararsız vəziyyətdə olan kazarmalar. Ordumuzun ərzaq təminatı çox aşağı səviyyədə idi. Ona görə dərhal göstəriş verdim və bu sahədə köklü dəyişikliklər baş verdi. Bu gün Müdafiə Nazirliyinin rəhbərləri bütün bu işləri yüksək səviyyədə təmin edirlər. Yəni bu gün həm təminat, həm xidmət baxımından Azərbaycan Ordusu dünyada nümunəvi ordular sırasındadır".



# AŞ PA ermənilərin arzusunu gözündə qoydu

## Elxan Süleymanov: "Assambleya düşmənlərimizin cəhdini dəstəkləməkdən imtina etdi"; Ukrayna parlamentinin Azərbaycan əsilli deputatı AŞ PA-nın vitse-prezidenti seçildi

**Avropa Şurası Parlament Assambleyasının qış sessiyası öz işinə başlayıb. Assambleyanın Monitorinq Komitəsinin üzvü, millət vəkili Elxan Süleymanov AŞ PA-nın 2017-ci il qış sessiyasının açılışından - iclasın gedişi barədə müsavat.com-a məlumat verib.**

Hazırda AŞ PA-nın iclasında iştirak edən Elxan Süleymanov qeyd edib: "Bu sessiyada assambleyada Azərbaycan nümayəndə heyətinə qarşı olan şayiələr öz təsdiqini tapmadı. Son günlər Ermənistanın bir çox mənbələri dəfələrlə Azərbaycana və Azərbaycan nümayəndə heyətinin üzvlərinə qarşı yanlış və saxta iddialar yayaraq, qəsdən mətbuatda gərginliyi artırırdı. Erməni deputatlar və bəzi ermənipərəst qüvvələr bütün AŞ PA üzvlərini açıq şəkildə Azərbaycan nümayəndə heyətinin mandatını sual altına qoymağa çağırır və hətta azərbaycanlı deputatların AŞ PA-dan çıxarılacağını hesab edirdi. Yanvarın 23-də aydın oldu ki, sağlam düşüncə və ədalət üstün gəldi. Belə ki, plenar sessiyada Azərbaycan nümayəndə heyətinin və ayrı-ayrı deputatların mandatı sual altına qoyulmadı. Avropalı deputatlar açıq-aşkar anladılar ki, hüququn aliliyinə xidmət edən AŞ PA-nın sübutsuz şayiələrə uyub hər hansı bir üzv dövlətin nümayəndə heyətinin üzvlərinə hücum etməsi hüquqa ziddir və tam anormal haldır. Bəzi qərəzli beynəlxalq QHT-lərin dəstəklədiyi Ermənistan bir daha sırf öz qonşusunun müsbət imicini zədələməyə cəhd göstərmişdi və beləliklə də, AŞ PA ermənilərin bu cəhdini dəstəkləməkdən açıq-aydın imtina etdi".

**Deputat bildirdi ki, yanvarın 24-də Monitorinq Komitəsi hər iki AŞ PA həmməruzəçisinin Bakıya faktaraşdırıcı səfərini müzakirə edəcək. Komitənin üzvü Elxan Süleymanov müzakirənin nəticəsinin həm Azərbaycan, həm də AŞ PA üçün müsbət və konstruktiv olacağına əminliyini qeyd edib.**

**E.Süleymanov Strasburqda AŞ PA-nın plenar sessiyasında bu nəticələri olduqca təqdirəlayiq hesab etdiyini dedi. O, ermənilərin şayiələrinin bu cür ali Avropa institutunda ciddi qəbul edilməyəcəyinə tamamilə əmin olduğunu nəzərə çatdırır:** "Azərbaycan nümayəndə heyətini bu qış sessiyasında narahat edən yeganə məsələ Ukrayna nümayəndə heyətinin rəhbəri Volodimir Arievin "Avropada jurnalistlərə və mətbuat azadlığına hücumlar" adlı məruzəsinə ermənilərin və ermənipərəst deputatların verdiyi düzəlişin qarşısının alınmasıdır. Həmin düzəlişdə "üzv dövlətlərin de-fakto separatçı rejimlər tərəfindən nəzarət edilən digər ərazilərində də, xüsusilə Azərbaycanın Dağlıq Qarabağ..." ifadəsinin çıxarılması təklif edilir".

Onu da qeyd edək ki, AŞ PA-nın qış sessiyasının ilk plenar iclasında Pedro Aqramunt növbəti dəfə bir illik müddətə assambleyanın sədri vəzifəsinə seçilib.

P.Aqramunt alternativsiz namizəd olduğundan avtomatik olaraq AŞ PA sədri elan olunub.

AŞ PA-nın Strasburqda keçirilən qış sessiyasının ilk plenar iclasında çıxış edən assambleya sədri Pedro Aqramunt Avropa Şurasına üzv olan ölkələr arasındakı münaqişələrə toxunub.

**APA-nın Avropa bürosunun xəbərinə görə, P. Aqramunt 2016-cı ilin aprel ayında Ermənistanla Azərbaycan arasında ağır döyüşlərin baş verdiyini xatırladaraq bölgədə gərginliyin hər an alovlana biləcəyini vurğulayıb:** "Biz Avropanın keçdiyi ağır tarixdən bilirik ki, münaqişələr heç cür müharibə yolu ilə həll edilə bilməz. Bizim parlamentar olaraq bu məsələdə rolumuz olduqca əhəmiyyətlidir. Parlament diplomatiyası və dialoqun aparılması çox vacibdir. Assambleyamız münaqişələrin həll edilməsində öz parlament diplomatiyası potensialından maksimum dərəcədə istifadə etməlidir".

Ukrayna Ali Radasının Azərbaycan əsilli deputatı Georgi Loqvinski isə AŞ PA-nın vitse-prezidenti seçilib.

APA-nın məlumatına görə, G. Loqvinski sessiyasda yekdilliklə bu vəzifəyə layiq görülüb.

Birləşmiş Ukrayna Azərbaycanlıları Konqresinin sədri Rövşən Tağıyev APA-ya bildirib ki, G. Loqvinski Azərbaycan diasporu ilə yaxından əməkdaşlıq edir və azərbaycanlıların ən yaxın dostudur: "O, 20 Yanvar faciəsi ilə bağlı səfirliklə birgə keçirdiyimiz iki gün əvvəlki tədbirdə iştirak etdi və Azərbaycanın problemlərinə daim şərik olduğunu açıqladı".

G. Loqvinski əslən Azərbaycanın Göyçay rayonundandır, milliyyətcə yəhudidir.

❑ Hazırladı; Elşad MƏMMƏDLİ

YENİ MÜSAVAT
N 15 (6629) 24 yanvar 2017

# Müxalifətdən Polad Bülbüloğluna qınaq

## Səfir şəhid əsgərimizin Ermənistanda saxlanmasına etinasızlıqda ittiham edildi


Polad Bülbüloğlu

**"Beynəlxalq sərhəddə baş vermiş hadisə zamanı həlak olmuş azərbaycanlı əsgərin meyitinin qaytarılması ilə bağlı danışıqlar davam etdirilir".**

Bunu modern.az-a Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) Bakı nümayəndəliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova bildirib.

İ.Hüseynova qeyd edib ki, tərəflər razılaşacağı təqdirdə Beynəlxalq Qırmızı Xaç Komitəsi öz neytral vasitəçi rolunu həyata keçirməyə hazırdır.

2016-cı il dekabrın 29-da Ermənistan silahlı qüvvələrinin kəşfiyyat qrupu ilə Azərbaycan-Ermənistan dövlət sərhədində baş verən döyüşdə həlak olan əsgərimiz Qurbanov Çingiz Salman oğlunun meyitinin geri qaytarılması ilə bağlı Müdafiə Nazirliyi tərəfindən BQXK-nın Azərbaycan nümayəndəliyinə, ATƏT-in Minsk Qrupuna, o cümlədən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşikə rəsmi qaydada müraciət edilib. Lakin hələ də Ermənistana təsir etmək mümkün olmayıb.

Bu arada Azərbaycanın müxalifət partiyalarından ölkəmizin Rusiyadakı səfiri Polad Bülbüloğluna əsgərimizin cəsədinin qaytarılmasına nail olmaq üçün Rusiyada imkanlarından yararlanmamaqda ittiham ünvanlanıb.

**AMİP-in beynəlxalq əlaqələr katibi Elşən Mustafayev** Polad Bülbüloğlunun Sergey Lavrova cavab verməməyinin, Ermənistanda saxlanan hərbçimizin cəsədinin alınması üçün Rusiya tərəfi ilə lazımi işi aparmamağının qınanmalı olduğunu bildirib.

**E.Mustafayev "Yeni Müsavat"a qeyd edib ki, Lider TV-nin artıq keçmiş müxbirinin verdiyi suala Sergey Lavrovun cavabı Azərbaycanın müstəqilliyinə təcavüzdür. Buna ilk reaksiyanı da məhz Rusiyadakı səfir Polad Bülbüloğlu verməlidir. Son günlər jurnalistin Polad Bülbüloğlunun tələbi ilə işdən çıxarılması haqda mətbuatda gedən məlumatlara nə səfirin, nə də səfirlik əməkdaşlarının təkzib verməməsi yazılanların haqlı olduğunu göstərir:** "Bu isə Azərbaycanı təmsil etmək vəzifəsi ilə bir araya sığmır. Ölkə prezidenti hər zaman rəsmən bəyan edir ki, sülh danışıqlarının gedişi problemin ədalətli həllinə gətirməyəcəksə, Azərbaycan hərbi yolla torpaqları işğaldan azad etmək hüququndan istifadə edəcək. Bunda sonra Lavrovun jurnalistin sualına cavab olaraq bizim belə bir hüququmuzun olmaması anlamına gələn cavabı Polad Bülbüloğlunu narahat etmir. Belə çıxır ki, prezident İlham Əliyevin fikirləri də səfiri maraqlandırmır? Jurnalisti münasibətlərə xələl gətirən sual verməkdə ittiham etmək səfirin yerində olmadığını göstərir. İki ölkə arasında münasibətlərə xələl gətirəcək əsas Lavrovun cavabıdır, jurnalistin sualı yox. Bir müddət öncə Lavrov Azərbaycan əsgərinin cəsədinin qaytarılması üçün Ermənistana təzyiq edilməsi xahişi ilə bağlı suala cavab olaraq bildirmişdi ki, bu, iki dövlətin arasında olan məsələdir. O zaman səfir Polad Bülbüloğlu niyə susmuşdu və bu gün niyə susur? Bu gün deyə bilməzdi ki, cənab Lavrov, siz Sərkisyanın müşaviri yox, Rusiyanın xarici işlər nazirisiz. Həm də bilməlisiniz ki, cəsəd, əsir dəyişmək humanitar məsələdir və adətən belə işlər 3-cü tərəfin vasitəçiliyi ilə olub. Bunların heç birini biz Polad Bülbüloğlundan eşitmədik. Sanki Lavrovun Azərbaycanın müstəqilliyi əleyhinə açıqlaması və əsgərimizin cəsədinin bir aya yaxındır Ermənistanda saxlanması səfirin vecinə deyil. Polad Bülbüloğlu bəlkə də özünün Rusiya siyasətçiləri, şou-biznes nümayəndələri arasında yaranmış yaxşı oğlan imicinə xələl gəlməsindən çəkinir".

**ADP sədrinin müavini Taliyət Əliyev isə bildirdi ki, Polad Bülbüloğlu Rusiyada səfir olaraq Azərbaycan maraqlarını müdafiə etməyə borcludur. Belə çıxır ki, səfir bunu etmək əvəzinə, Azərbaycan vətəndaşı olan müxbirin hüquqlarını pozur:** "Əgər Polad Bülbüloğlu belə cəsarət sahibidirsə, Rusiya XİN başçısının açıqlamasına münasibətini ortaya qoymalı idi. Sergey Lavrov açıq-aşkar Azərbaycanın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü şübhə altına alır, Azərbaycanın Rusiyadakı səfiri isə susur. Bildiyimiz kimi, Rusiya ATƏT-in Minsk Qrupu çərçivəsində həmsədr olan dövlətlərdən biridir. Lavrovun məlum açıqlaması Rusiyanın həmin qrupda vasitəçilik (bitərəf vasitəçilik) missiyası ilə bir araya sığmır və açıq şəkildə Rusiyanın bu münaqişədə tərəf olduğunu bir daha sübut edir. Polad Bülbüloğlu buna öz etirazını bildirməlidir. Polad Bülbüloğlu imkanlarından istifadə edib şəhid əsgərimiz Çingiz Qurbanovun cəsədinin Azərbaycana təhvil verilməsi üçün çalışmaq əvəzinə, Lavrovun müdafiəçisinə çevrilirsə, təəssüflər olsun".

❑ **Etibar SEYİDAĞA**

# Səfirin işdən qovdurduğu jurnalistlə bağlı qalmaqal səngimir

## Mətbuat Şurasının sədri və Azərbaycanın Rusiyadakı səfirliyi məsələyə münasibət bildirib; jurnalist hələ də susur; **YAP-çı deputat:** "Jurnalist yazıq nə qəbahət iş görüb?"



**"Lider TV"nin Rusiyadakı müxbiri Anar Həsənovun qonşu ölkənin xarici işlər naziri Sergey Lavrova verdiyi suala görə işdən qovulması ilə bağlı yaranan müzakirələr səngimək bilmir. Bu məsələyə görə jurnalistin kanaldan uzaqlaşdırılması ilə bağlı versiyalar meydana çıxır.**

Diqqətçəkən məqamlardan biri A.Həsənovun indiyə qədər olan susqunluğudur. O, barəsində gedən söz-söhbətlər, işini itirməsinə səbəb olan hadisə ilə bağlı bir kəlmə də danışmayıb. Yalnız "Lider TV"dən azad olunmasını AzadlıqRadiosuna açıqlamasında təsdiqləyib və "başqa heç bir açıqlama vermək istəmirəm" deyib.

Ötən ilin aprelində daha bir azərbaycanlı jurnalistin başına buna oxşar hadisə gəlmişdi. Türkiyənin "İhlas" xəbər agentliyinin Moskva müxbiri, Rusiya telekanallarında Azərbaycanın maraqlarını daim müdafiə edən Fuad Abbasov işdən çıxarılmışdı. O zaman həmkarımız nəinki susmuş, hətta işini itirməsində açıq şəkildə Rusiya hökumətinin əlinin olduğunu bildirmişdi.

Qeyd edək ki, müxbirin başına gələnlərdə əsas səbəbkar kimi Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu göstərilir. Onun təqdimatından sonra jurnalistin işini itirdiyi iddia olunur. Rusiyadakı səfirliyimizdən bununla bağlı ölkə.az-a açıqlama verilib. Səfirliyin mətbuat xidmətindən "Səfirlik öz işi ilə, diplomatik fəaliyyətlə məşğuldur. "Lider TV" isə müstəqil telekanaldır, özləri bilir, kimi işdən çıxarır, kimi işə götürür. Jurnalistin işdən çıxarılması məsələsi ilə bağlı telekanala müraciət olunsa, daha yaxşı olar", deyə bildirilib.

A.Həsənovla bağlı məsələyə dair mövqelərdə ikitirəlik yaranıb. Doğrudur, əksəriyyət onu açıq şəkildə müdafiə edir, jurnalistin peşə fəaliyyətinə uyğun olaraq, verdiyi suala görə işdən qovulmasını ədalətsiz hesab edir. Amma bununla belə, bunun əksini deyənlər də var. Onların da arqumentləri ondan ibarətdir ki, kanal rəhbərliyi ilə razılaşdırmadan, özü də elə bir mötəbər konfransda Dağlıq Qarabağ münaqişəsinin həllində açar rolunu oynayan bir dövlətin XİN rəhbərinə belə bir sual ünvanlamaq doğru deyil. Hətta bu tipli sualların təmsil etdiyi ölkəni də pis vəziyyətə saldığı qeyd olunur.

**Mətbuat Şurasının sədri Əflatun Amaşov həmkarımızın işdən azad olunması haqqında fikirlərini sosial şəbəkədəki səhifəsində paylaşıb:** "Azərbaycan-Rusiya münasibətlərinin hazırkı mərhələsində Azərbaycan jurnalistinin - "Lider TV"nin müxbiri Anar Həsənovun Sergey Lavrova ünvanladığı sual ola bilsin ki, uğurlu deyildi. Söhbət Dağlıq Qarabağ münaqişəsindən gedirsə, zənnimcə, daha vacib məqamlara diqqət yetirmək lazım idi. Məsələn, 2016-cı ilin "aprel müharibə"sindən sonra Lavrovun şəxsində Rusiya yeni sülh planı irəli sürmüşdü. Nizamlama prosesindəki son və deyərdim ki, daha real mərhələ məhz bu plan idi. Ancaq biz gördük ki, plan icra olunmadı. Ermənistan məsələyə əhəmiyyət vermədi. Rusiya isə sözünün üstündə durmadı. Lavrovdan bunun səbəbini soruşmaq olardı. Nəzərə alaq ki, Rusiyanın yüksək vəzifə tutan nümayəndəsinə birbaşa sual vermək şansı hər zaman ələ düşmür. Şansdan maksimum yararlanılmalı idi.

İkincisi, jurnalistin işdən çıxarılması "Lider TV" rəhbərliyinin müstəsna səlahiyyətində olan məsələdir. Əlbəttə, o, istedadlıdırsa, səmərəli fəaliyyəti ilə seçilirsə, potensialından digər vəzifələrdə də istifadə etmək olardı.

Üçüncüsü, bəzi adamlar bildirirlər ki, Anar Həsənov jurnalist peşəsinə uyğun olmayan dəst-xətt seçirmiş. Müxtəlif təmənnalı işlər görürmüş. Mən bu yanaşmanı məqbul saymıram. Əgər belə işləri olubsa, ona qarşı tədbir vaxtında həyata keçirilməliydi. O adamlar da gərək həmin vaxt dilə gələydilər, fikirlərini bildirəydilər. Hər bir halda işçisini işdə saxlayıb, yaxud uzaqlaşdırmaq bir daha deyim, "Lider TV" rəhbərliyinin səlahiyyətində olan məsələdir".

**BQP sədri, deputat Fazil Mustafa da məsələyə münasibət bildirib:** "Anarın işdən azad olunmasında səfirin hansısa rolu olmayıb. Çox güman ki, sual əvvəlcədən razılaşdırılmayıb, müstəqil addımına görə narazılıq yaranıb.

Hər halda, Azərbaycan Rusiya ilə münasibətlərdə haqlı olaraq hədsiz ehtiyatlılıq nümayiş etdirir və Rusiyanın açıq mövqe bildirməsi indiki şərtlərdə faydamıza deyil. Rusiyanın mövqeyinin tədricən, həm də qapalı şəkildə dəyişə biləcəyinə daha çox ümid bəslənilir. Sualda hansısa təhqir olmadığına görə bunu nə Rusiyanın tələbinə, nə də Rusiyanın xoşuna gəlməsinə görə gerçəkləşdirdikləri inandırıcı deyil. Fikrimcə, məsələyə jurnalistin öncədən razılaşdırılmamış davranışı səbəb olub. Bütün hallarda bunlar əsas vermir ki, bir suala görə jurnalist işdən uzaqlaşdırılsın. Bu addımı yanlış hesab edirəm".

**YAP-çı deputat Elman Məmmədov jurnalisti müdafiə edib. Ölkə.az-a açıqlamasında o bildirib ki, jurnalistin sual verməsi qəbahət deyil:**

"Burada jurnalist yazıq nə qəbahət iş görüb? Jurnalist sual verərək, öz işini görüb də! Sual vermək jurnalistin peşə borcudur, işidir. Burada jurnalist kimisə təhqir etməyib, söyməyib. Ancaq sual verib. Düşünürəm ki, sual verməyə görə də kimisə cəzalandırmaq doğru addım deyil".

**"Yeni Nəsil" Jurnalistlər Birliyinin sədri Arif Əliyev qəzetimizə açıqlamasında A.Həsənovun işdən uzaqlaşdırılmasında heç bir əsasın olmadığını söylədi:** "Bu, sırf siyasi qərardır. Burada yeganə bir problem var. Bizim xaricdə işləyən jurnalistlərimiz dili daha fəal bilməli, ifadələri daha yaxşı seçməlidirlər. Bundan əvvəl də Amerikada bir problem yaşamışdıq. Amma bu sualın qoyuluşunda heç bir problem yoxdur. İndiyə qədər dəfələrlə belə suallar verilib, sadəcə, şikayət edən yox idi. Azərbaycanda səlahiyyəti olan şəxslər jurnalistlərə daha hörmətlə yanaşmalıdırlar. Lavrov onun sualına təmkinlə cavab verdi. Sadəcə, cavabında bir ifadə var idi. Dil qüsuruna işarə vururdu. Amma təmkinli cavab verdi, indi yalan cavab verdi, bu başqa məsələdir. Bizimkilər olmayan yerdən qaşımaqla qan çıxardılar. Təəssüf ki, ölkəmizdə hakim dairələrdə Rusiya mətbuatına, rəhbərliyinə həddən artıq həssaslıqla yanaşanlar çoxdur".

**YAP-çı deputat, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov bunları dedi:** "Hansısa bir qurumun rəhbərinin verdiyi qərarı müzakirə etmirəm. Bunu etikaya uyğun saymıram. Jurnalistin sual vermək peşə fəaliyyətidir. Amma burada əsas söhbət jurnalistin peşə fəaliyyəti, yaxud verdiyi suala görə işdən çıxarılıb-çıxarılmaması ilə bağlıdır. Bəli, çıxarıla bilər. Məsələni jurnalistin sual verdiyinə görə işdən çıxarılması üzərində qurmaq olmaz. Jurnalist harada, hansı sualı verməli olduğunu bilmədir. Söhbət dövlətlərarası əlaqələrdən və ölkəmizin bir nömrəli problemindən gedir. Bu sualla jurnalist başqa sahələrin fəaliyyət dairəsinə müdaxilə etmiş oldu. O elə bir sualdır ki, hökmən razılaşdırılmalı idi, redaksiyanın özü ilə. Çünki sıradan bir sual deyil. Qarşı tərəf belə qiymətləndirib ki, jurnalist bu məsələnin ictimailəşdirilməsi üçün öyrədilib. Mən özüm siyasi qəzetin redaktoruyam. Müxbir razılığım olmadan belə sual verə bilməzdi. Mən isə dövlət məsələsi olduğuna görə, müəyyən razılıq olmadan müxbirə deməzdim ki, belə sual ver. Əsas məqam budur. Səfirin təqdimat verdiyi deyilir. Əgər səfir bunu zəruri hesab edirsə, yenə burada dövlətlərarası münasibət məsələsi əsasdır. Bu baxımdan, telekanalın doğru addım atdığını düşünürəm. Jurnalistin verdiyi sualı təsadüf sayıram. Hətta mənə elə gəldi ki, fikrini formalaşdırmaqda çətinlik çəkdi, tərəddüd etdi. Sanki əvvəlcədən suala hazır deyildi, qəfildən ağlına gəlmişdi. Məsələnin siyasi yükünü bilmədən peşə xətasına yol verib. Kanal onu cəzalandırsa belə, öz işidir. Biz mükafat verəndə alqışlayırıq, elə ki, cəzalandırma oldu, başlayırıq söz azadlığından, demokratiyadan danışmağa. Görün nə qədər jurnalist bu hadisədən dərs götürəcək. Bunu jurnalistikanın növbəti dərslərindən biri sayıram".

**Azərbaycan XİN-in məsələyə münasibətini öyrənmək cəhdimiz yenə də alınmadı.**

❑ **Cavanşir ABBASLI**

# İrəvan müharibəni seçir, danışıqlar sıfırlanır - səbəb




# Prezident Əliyev Lavrova və Sərkisyana sərt cavab verdi

**Ermənistan prezidenti Serj Sərkisyan, gözlənildiyi kimi, Rusiya xarici işlər naziri Sergey Lavrovun son Qarabağ açıqlamasından əməllicə ruhlanıb. Belə ki, yanvarın 20-də 4 günlük aprel savaşında iştirak edən və tərxis olunan hərbçilərlə görüşdə o daha ürəklə maksimalist və təxribatçı mövqedən çıxış edib, növbəti dəfə danışıqlar prosesini sıfırlayan, böyük müharibəni yaxınlaşdıran və BMT Təhlükəsizlik Şurasının işğalla bağlı qətnamələrini qulaqardı edən fikirlər söyləyib.**

## Ölkə başçısından işğalçı və havadarlarına sərt ismarış: “Dağlıq Qarabağa heç vaxt müstəqillik verilməyəcək, kimsə bunu gözləyirsə, əbəs yerə gözləyir”; Rusiya baş diplomatının Qarabağ yorumundan ruhlanan erməni prezident isə təxribatçı mövqeyini gücləndirib; erməni nəşri: “Hakimiyyət o qədər qudurub ki, əsgərin payına da göz dikir...”

Məsələn, Xocalı canisi ərz edib: “Heç kim Dağlıq Qarabağın taleyini həll eləmək hüququna malik deyil”. Bildirib ki, “Dağlıq Qarabağ erməniləri öz talelərini yalnız özləri müəyyən edə bilərlər”. Başqa sözlə desək, guya Azərbaycanın Dağlıq Qarabağ üzərində heç bir haqqı, suveren hüququ qalmayıb, region artıq Azərbaycanın tərkib hissəsi kimi qəbul edilmir dünyada. Halbuki Azərbaycan bu haqqı, ərazilərini nə vaxtsa silah gücünə azad eləmək hüququnu indi də özündə saxlayır və kimsəyə verməyib. Belə bir hüquqi sənəd, anlaşma mövcud deyil. Bunu Sərkisyan da, onun rusiyalı havadarı, ilana zəhər verən kərtənkələ - Kələntərov-Lavrov da yaxşı bilir.

**Ancaq “Qarabağ məsələsi təkcə Azərbaycanın daxili mövzusu deyil” deyən Lavrovdan Sərkisyan necə ilham almasın ki? Odur ki, bir az da qabağa gedərək bəyan edib:** “Status dəqiqləşməyincə, ərazi qaytarılmasından söhbət gedə bilməz”. Oxşar fikir ki, məlum mətbuat konfransında faktiki şəkildə S.Lavrov tərəfindən də dilə gətirilmişdi. Rusiya XİN rəhbəri, üstəlik, BMT TŞ-nin Dağlıq Qarabağa dair qətnamələrinin mahiyyətini erməni maraqlarına uyğun təhrif və təqdim etməyə çalışmışdı. Bu yerdə indi politoloq Eldar Namazovun qəzetimizə verdiyi müsahibdə bir fikirlə necə razılaşmayasan ki, “Lavrov gercəkdən, erməni lobbisinin tərkib hissəsidir”.

*****

Politoloq Elxan Şahinoğluna görə, Sərkisyanın həmin görüşdəki çıxışının və verdiyi cavabların əsas leytmotivi budur: **1.** Dağlıq Qarabağın statusu müəyyənləşmədən ətraf torpaqların boşaldılmasından söhbət belə gedə bilməz; **2.** Ermənistan münaqişənin həllinə bugünkü qədər yaxın olmayıb və beynəlxalq vasitəçilər İrəvanın mövqeyini dəstəkləyir; **3.** Madrid prinsipləri status müəyyənləşməsini diqtə edir; **4.** İrəvan silah almaqda Bakı ilə ayaqlaşa bilməsə də, Ermənistanın müdafiə xarakterli kifayət qədər silahı var.

**Onun sözlərinə görə, Sərkisyanın bu tezisləri danışıqlar prosesinin İrəvanı qane etdiyini təsdiqləyir.** “Buna görə də onlar status-kvonu mümkün qədər uzatmağa çalışacaqlar. Müharibənin əleyhinə olan beynəlxalq mühit də rəsmi İrəvanın maraqlarına xidmət edir. Sərkisyan ölkəsinin və özünün vassal olduğunu göstərməmək üçün görüşdə bir dəfə də Rusiyanın adını çəkməyib. Ancaq onun sadaladığı bütün tezislərin arxasında Kremlin dəstəyi və Sergey Lavrovun mətbuat konfransında vurğuladığı məqamlar dayanır”, - deyə politoloq vurğulayıb.

*****

Lakin Serj Sərkisyanın Qarabağ məsələsində yenə “yuxarıdan” getməsi onun öz ölkəsindəki daxili ictimai-siyasi durum, Ermənistanın günü gündən ağırlaşan iqtisadi vəziyyəti, əhalinin hakim rejimə qarşı güclənən nifrəti ilə tərs mütənasibdir. Bunu “Qraparak” nəşrindəki məqalə bir daha təsdiq edir (publika.az).

**Məqalə müəllifi öncə aprel döyüşlərində iştirak eləmiş erməni hərbçilərinə Sərkisyan iqtidarının rüsvayçı münasibətindən söz açıb. Sərkisyan rejiminin erməni xalqının başına açdığı oyunlara toxunan Tavoş Arsakyan yazıb:** “Apreldə ölən əsgərlər qəhrəmanlaşdırıldı, İrəvan meriyası onların ailələrinə mənzillərin veriləcəyini canfəşanlıqla bildirdi. Lakin zaman keçdikcə hər şeyin, sadəcə, sözdən ibarət olduğu ortaya çıxdı”.

**“Qraparak” qəzetinin məlumatına görə, Ermənistan ordusundan tərxis olunan əsgərlərin hərbi biletlərində aprel döyüşləriində iştirak etdikləri haqda heç nə qeyd edilməyib:** “Tərxis olunan əsgərlərdən biri Madagizdəki döyüşdə iştirak edib. Lakin onun hərbi biletində harada xidmət keçməsi haqda bölmə rənglənərək, görünməz hala salınıb. İndi o əsgər heç kəsə sübut edə bilməyəcək ki, döyüşlərdə iştirak edib”, - nəşr qeyd edib.

**Məlumata görə, tərxis olunmuş bir neçə əsgər bu məsələyə görə qəzetin redaksiyasına müraciət edib. Qəzet daha sonra yazıb ki, hakimiyyətin məqsədi döyüşlərdə iştirak etmiş əsgərlərin gələcəkdə güzəştlərdən istifadə edə bilməsinin qarşısını almadır:** “Misal üçün, döyüşlərdə iştirakçı olmuş əsgərlərə təhsil haqqının 20 faizi güzəşt edilir. Hakimiyyət bu kiçik imkanları da onların əlindən alır”. **T.Arşakyan sonda yazır ki, Sərkisyan rejimi artıq uçuruma yuvarlanır.** “Hakimiyyətin əsgərlərə kompensasiya verməməsi, onların güzəşt imkanlarını kəsməsi sual yaradır: yəni ölkə bu qədərmi kasıblayıb? Lakin cavab fərqlidir: hakimiyyət o qədər qudurub ki, əsgərin payına da göz dikir”, - deyə o qeyd edib.

*****

Ermənilərin özlərinin də etiraf elədiyi kimi, işğalçı ölkə belə bir miskin kökdədir və getdikcə sosial-iqtisadi durumu daha da ağırlaşmaqdadır. Bu arada Azərbaycan prezidenti İlham Əliyev həm S.Lavrovun məlum bəyanatına, həm də “rusun iti” Sərkisyanın yuxarıdakı özündənrazı fikirlərinə tutarlı cavab sayıla biləcək mühüm açıqlamalar verib.

**Belə ki, dünən Müdafiə Nazirliyinin Abşeron rayonunun Pirəkəşkül qəsəbəsində “N” hərbi hissəsinin yeni inşa edilmiş hərbi şəhərciyinin açılışına qatılan prezident öncə aprel döyüşlərinin Azərbaycan Ordusunun böyük qələbəsi olduğunu deyib. “Həmin döyüşlər zamanı Ermənistanın öz ordusu ilə bağlı uzun illər yaratdığı mif dağıdıldı”**, - ölkə başçısı vurğulayıb.

“Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Ermənistan işğalın aradan qaldırılması üçün beynəlxalq təşkilatların qətnamə və qərarlarına məhəl qoymur. Azərbaycan gücləndikcə münaqişənin həlli yaxınlaşır. Münaqişənin həlli isə çox sadədir. Birinci, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Biz Azərbaycan ərazisində ikinci qondarma erməni dövlətinin yaranmasına heç vaxt icazə verməyəcəyik, Dağlıq Qarabağa heç vaxt müstəqillik verilməyəcək. Kimsə bunu gözləyirsə, qoy, əbəs yerə gözləməsin. Bu, olmayacaq. Dağlıq Qarabağ Azərbaycan torpağıdır, tarix və dünya birliyi də bunu belə qəbul edir" - İlham Əliyev işğalçıya və onun havadarlarına bir daha aydın mesaj göndərib.

**Prezidenti qeyd edib ki, Azərbaycan Ordusunda ruh yüksəkliyi var, vətənpərvərlik hissi yüksək səviyyədədir:** “Ordumuzun döyüş qabiliyyəti bu gün dünya ictimaiyyəti tərəfindən də yüksək qiymətləndirilir. Müxtəlif təhlillər aparılır, hərbi mütəxəssislər öz fikirlərini söyləyirlər. Biz bunu bilirik. Bu gün dünya da bilir ki, döyüş qabiliyyəti, hərbi-texniki təminat baxımından Azərbaycan Ordusu güclü ordular sırasındadır. Bütün bu nailiyyətləri biz özümüz öz hesabımıza, güclü iqtisadiyyat hesabına əldə etmişik. Güclü iqtisadiyyatımız olmasaydı, bu işləri görə bilməzdik. Bu hərbi şəhərcik həm ordumuzun, həm dövlətimizin gücünü göstərir”.

Prezidentin ordumuz və onun döyüş qabiliyyəti barədə yüksək səviyyəli fikir və mesajları da heç şübhəsiz ki, S.Lavrovun “Qarabağ mövzusu Azərbaycanın daxili məsələsi deyil” sözlərinə başqa rakursdan cavabdır. Yeni Azərbaycan öz silahlı qüvvələrini yalnız təlimlər keçirmək üçün gücləndirmir və zəruri məqamda ordumuz öz sözünü mütləq deyəcək.

❑ **Siyasət şöbəsi**

# Arabanın 5-ci təkəri olanlar - içimizdəki təhlükə



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Lavrovun məlum bəyanatı və ardınca jurnalistlə bağlı yaşanan insident Qarabağ məsələsində yaxşı bir test oldu, lakmus kağızı rolu oynadı: toplum üçün, yalançı patriotlar uçun, həmçinin də rəsmilər və Kremlin Azərbaycana gerçək münasibətinə əmin olmaq üçün.**

Bu insident eyni zamanda içimizdəki gizli “5-ci kolonçu”ların çevrəsinə işıq saldı, Rusiyanın burdakı “papaq altındakı” dəstəkçilərini üzə çıxardı. Həmin açıqlamaya reaksiyalar bu prizmadan baxanda daha qiymətli görünür. Sən demə, aramızda Rusiyanı Rusiyanın özündən, erməni əsilli Lavrovu Lavrovun özündən çox istəyənlər varmış və onların dairəsi heç də sadə azərbaycanlılarla əhatələnmirmiş.

Rusiyadakı səfirimiz Polad Bülbüloğlunun da adı hallandı son olayda. Təəssüf. Deyilənlərə görə, Lider TV-nin müxbiri Anar Həsənovun Lavrov-Kələntərova naqolay sual verdiyi üçün işdən çıxarılmasında onun müstəsna “xidməti” olub, üstəlik, jurnalisti suala görə (?! -Z.S.) təhqir etdiyi deyilir.

Düzdür, səfir hələ məsələyə reaksiya bildirməyib. Ancaq adamın inanmağı gəlmir. Bəyəm o, Rusiyanın Rusiyadakı səfiridir, yoxsa Azərbaycanın səfiri? Hər şey qıraға, bu, həmin Bülbüloğlu deyilmi ki, “sülh danışıqları nəticə verməsə, Azərbaycan istənilən yolla öz ərazilərini azad edəcək” demişdi?! Özüdür ki var. O zaman nə baş verir?

Məgər jurnalisti işdən qovmaqla Kremlin Azərbaycana, Qarabağa münasibəti dəyişdi? Ya bəlkə Lavrov öz sözlərini geri götürdü?

Yaxud Lider TV rəsmisinin olaya əcaib reaksiyasına baxın: deyir ki, guya jurnalist Sergey Lavrova verdiyi kəskin suala görə işindən kənarlaşdırılmayıb. Bəs nəyə görə çıxarılıb - deyilmir. Və nəyə görə məhz indi işdən çıxarılıb, tutaq ki, məlum insidentdən bir az əvvəl yox?..

Axı biz niyə beləyik? Kobud çıxmasın, nədən “eşşəyə gücümüz çatmır, palanı döyürük”? Lavrovun təhqiramiz açıqlamasına görə Bakıda Rusiya səfirliyi önündə etiraz aksiyası keçirmək, Moskvanın Azərbaycana qarşı əsl niyyətini ortaya çıxaran bu cəsarətli suala görə jurnalistə təşəkkür eləmək, ona arxa durmaq əvəzinə, nədən o sıxışdırılmalı, işindən olmalıdır? Kimin dəyirmanına su tökürük? Dünyanı özümüzə güldürməyə nə gərək - harda görünüb ki, jurnalist verdiyi suala görə öz işini itirsin? Allahın Ermənistanı Rusiyanın satelliti, marioneti ola-ola, vaxtaşırı bu ölkəyə qarşı etirazlar edir. Biz isə...

Sonra. Nə üçün 1 nömrəli milli məsələmizdə bu dərəcədə nala-mıxa vuranlarımız, Rusiyadan tük tökənlərimiz var? Özü də içində yüksək ranqlılar olmamaqla? Yaxşı, sabah həqiqətən də Vətən müharibəsi başlasa, belələrinə yüksək postları, hərbi görəvləri, silah-sursatı, arxa cəbhəni etibar eləmək olarmı? Azərbaycanı 5 qəpiyə satmazlarmı Kremlin burdakı gizli-aşkar “5-ci kolonçu”ları?

Hələ ki müharibə yoxdur. Yoxdusa, o zaman Qarabağ diplomatik cəbhəsində dövlət və millət olaraq qətiyyətimizi, prinsipiallığımızı, qürurumuzu daim qorumalıyıq. Əks halda, heç kim bizi saymayacaq. Ən əvvəl də Rusiya həmişə dirənişimizi görməlidir bu məsələdə. Yoxsa bizi mağmın hesab edib, bir az da üstümüzə gələcək.

İş də ondadır ki, hansı vəzifədə, harda olursan-ol, hansı statusu daşıyırsan-daşı, öncə azərbaycançı ol! Mərd ol, kişi ol! Torpağı, namusu, qeyrəti şəxsi və korporativ maraqlardan heç vaxt aşağıda tutma! Kiminsə, hansısa ölkənin, xarici gücün, onun-bunun “5-ci kolonu”, daha betəri, arabanın 5-ci təkəri olma! Çünki bu, eybəcər görünür. Zira, hər şey öz qlafında təbiidir, gözəldir, uzunömürlüdür...

Bunu yazırıq, ancaq yaxşı bilirik ki, azərbaycançı olmaq üçün öncə azərbaycanlı olmaq lazımdır. Azərbaycanlı isə heç də həmişə azərbaycanca danışan adam deyil. Azərbaycanı, onun torpağını, suyunu, havasını doğma anası kimi sevən şəxsdir! Bu mənada doğrudan da hər bəd işdə bir xeyir başlanğıcı var. Çünki Lavrov insidenti indiki Rusiyanın başında duranların Azərbaycanla bağlı əsl xislətinə əmin olmaq, ocağımızın başındakı “5-ci kolon”çuların çevrəsini tanımaq üçün bənzərsiz fürsət yaratdı.



# Quinta columnanın uşaqları

Samir SARI

**Etiraf gününün üstündən 12 saat (yazının yazıldığı vaxt) keçməsinə baxmayaraq, etiraf edirəm ki, bu yazını başlamazdan öncə Google.az-da "5-ci kolon nə deməkdir" yazıb axtarış verdim.**

Noutbukun displeyinə xeyli yazı çıxdı, hamısının da içində "5-ci kolon" sözləri keçirdi, məlum olurdu ki, o "əjdaha"dan ölkəmizdə də xeyli var.

Amma bu yazıların heç biri "5-ci kolon nə deməkdir" sualına cavab vermirdi, məcbur qalıb sualı Lavrovun şirin dilində yazdım: "Çto znaçit 5-ıy kolon?"

Bu, başqa məsələ. Lazım olan cavab gəldi. Heç demə, "5-ci kolon" (ispancada - quinta columna) 1936-39-cu illərdə İspaniyada baş vermiş vətəndaş müharibəsi zamanı general, diktator Frankonun agenturası demək imiş.

Daha sonra "5-ci kolon"a dair belə bir izahat var: "Siyasi frazeologiya və jurnalistikada daxili düşmənlərin müxtəlif tiplərinə münasibətdə aktiv istifadə olunur".

Neçə gündür "5-ci kolon" söhbəti yenidən yoğunlaşıb. Jurnalistlər, politoloqlar, ictimai-siyasi fəallar yenə "5-ci kolon"un üzvlərini axtarmağa başlayıblar.

Əslində bu ölkədə general Frankoya nə qədər adam işləyirsə, demək olar ki, hamısı bəllidir.

İndiki "kolon"çular hansı dövlətə işlədiklərini gizlətmirlər, qəzetdə, saytda, sosial şəbəkədə açıq-aydın yazırlar, hətta basıb adamın gözünü deşirlər.

Məsələn, bizim saytda qonşu (eləcə də uzaq) ölkələrə dair gedən yazıların altında yazılan şərhlərdə bunu ayın görmək olar. Elə bir gün olmur ki, İrana "rəğbət bəsləyən" biri bizi beynəlxalq sionizmə, Amerika imperializminə, Səudiyyə kralına işləməkdə ittiham eləməsin.

Özü də bu ittihamı irəli sürən adam elə hiddətlənir ki, sanasan, əmisi İran prezidentin müşaviri, dayısı ayətullah, qardaşı da inqilab keşikçiləri ordusunda alay komandiridir.

Üstündən heç üç dəqiqə keçmir, digər bir yazının (tutaq ki, İŞİD-in törətdiyi növbəti cinayət barədə) altında başqa bir oxucu şərh yazır: "İranın iştəklərindən niyə yazmırsınız? Tehrandakı, Qumdakı ağalarınız icazə vermir?"

Anlaşılır ki, bu da Səudiyyə Ərəbistanına, Qətərə, İŞİD-ə "rəğbət bəsləyir", özünü Bağdadinin əziz-xələfi kimi aparır.

Ruspərəstlərin əlindən isə heç sosial şəbəkəyə girmək olmur. Yoldaşlar çox aqressivdirlər. Onlara görə, Rusiya həmişə haqlıdır. Təbii ki, Amerika da həmişə olduğu kimi, haqsız və pisdir. Rusiya nə edirsə, düz edir, Amerika isə dünyanı qarışdırır.

Bu xüsusda bir dostumuz SSRİ vaxtı məşhur olan bir lətifə də paylaşmışdı: "ABŞ dünyanın hər yerində Rusiyanın daxili işlərinə qarışır".

Bu ruspərəstlərin "Lavrov-jurnalist-sual-Polad-işdənqovulma" məsələsində tutduqları mövqeni görəndən sonra adama elə gəlir ki, sabah Kreml açıq-qırmızı şəkildə "Qarabağ ermənilərə verilməlidir" desə, bu adamlar ortalığa düşüb deyəcəklər: "Düzdür. Çoxdan verilməliydi". Hətta Moskva müstəqil dövləti yenidən müstəmləkəyə çevirsə də "general Franko"nun adamları etiraz etməyəcəklər, "bizə müstəqillik lazım deyil" deyəcək və müstəqillik tərəfdarı olanların siyahısını tutub Moskvaya göndərəcəklər - güllələtdirmək üçün.

Bəzən onlar özlərinə solçu deyirlər. Guya ki, kommunistlərmiş. Amma bu necə solçuluqdur ki, bu saat dünyanın ən qəddar sağçılığı, vəhşi kapitalizmi Rusiyadadır, ən böyük kapitalistlər rus məmurlarıdır, bunlar isə onları müdafiə edirlər. Yəni solçuluq-molçuluq boş şeydir, bunun adı ruspərəstlikdir.

ABŞ və ayrı-ayrı Avropa dövlətlərinə "rəğbət bəsləyənlər" də N qədərdir. Peşmansan, o dövlətlərin birinə dair nəsə mənfi səciyyəli söz yazasan, adamı sosial şəbəkədə elə söyərlər, Hadı Rəcəblinin, Astan Şahverdiyevin rekordları qırıq-qırıq olar.

İndi-indi aydın olur ki, nədən ötən əsrin 30-cu illərində Stalin bu ölkədə xeyli adamı "xarici dövlətlərə işləmək"də təqsirli bilərək güllələtdirib. Hətta bir cəbrayıllı kəndlini Yaponiyaya işləməkdə günahkar biliblər.

Hazırkı "franko"çuları, İrana, Rusiyaya, Türkiyəyə, Səudiyyəyə, ABŞ-a, İngiltərəyə, Almaniyaya, Fransaya "rəğbət bəsləyən"ləri görəndə quşqulanırsan ki, deyəsən, o "xaricə işləmək" söhbətinin müəyyən əsasları da olub. Hər halda, cəbrayıllı kəndli ilə Yaponiya imperatorunun nəsə bir əlaqəsi varmış.

# "Trampın prezidentlik fəaliyyəti faciəvi ola bilər"

## Tanınmış politoloq ABŞ-ın yeni prezidentinə qarşı başlanan prosesin səbəblərindən danışdı

**ABŞ-ın yeni 45-ci prezidenti Donald Trampa qarşı etiraz aksiyaları sənginmək bilmir. Etiraz dalğası getdikcə böyüyür və artıq ABŞ sərhədlərindən kənara da sıçrayıb. ABŞ-da Tramp əleyhinə başlanan qadın hərəkatına avropalı həmcinsləri də qatılıb.**

Qeyd edək ki, ABŞ-da yeni seçilən prezidentə prezidentliyinin birinci günündən bu səviyyədə böyük etirazların olması ilk dəfədir yaşanır. Trampın ilk gündən belə bir acı təcrübə ilə üz-üzə qalması, başlanan etiraz dalğasının arxasında hansı məqamların dayandığı barədə müxtəlif ehtimallar irəli sürülür.

**Politoloq Qabil Hüseynli bildirdi ki, etiraz dalğasının vüsət almasının bir sıra səbəbləri var:** "Yeni prezidentə etiraz edənlərin böyük əksəriyyətinin qadınlar olması Trampın seçki kampaniyasında qadınları təhqir etməsindən qaynaqlanır. Etirazın bir mühüm səbəbi də ABŞ-ın seçki sistemində olan çatışmazlıqların Tramp kimi namizədin prezident seçilməsinə şərait yaratmasıdır. Hillari Klinton Trampdan 3 milyon çox səs toplamasına baxmayaraq, Nümayəndələr Palatasında 70 səs üstünlük nəticəsində məhz Tramp seçildi. ABŞ-ın ştatlarında seçicilərin sayı da prezidenti seçən nümayəndələrin sayı ilə proporsional deyil. Etiraz dalğasını yaradan digər səbəb yeni prezidentin şəxsiyyətidir. Etiraza qalxanların tələblərindən biri budur ki, Tramp özünün vergi bəyannamələrini üzə çıxarsın. Çünki seçki ərəfəsində onun təxminən 1 milyard dollara yaxın vergi gizlətdiyi haqda məlumatlar yayılmışdı. İndi insanlar tələb edir ki, Tramp öz kommersiya fəaliyyəti dövründə qazancı və ödədiyi vergilər haqda deklarasiya yaysın. Etirazların digər səbəbi onun Rusiya ilə bağlılığıdır. Etiraz aksiyasında Trampın yetkin siyasətçi olmadığını bəyan edənlər də var. Bunu bəyan edənlərin fikrincə, yeni prezidentin siyasəti bilməməyi ABŞ-ı ciddi problemlərlə üz-üzə qoya bilər. Trampın siyasətçiyə xas olmayan danışığı, cümlə qurmağı da ona qarşı etirazlara stimul verib".


Donald Tramp

**Ekspertin sözlərinə görə, Trampın hakimiyyətini istəməyən gizli və açıq güclər də insanların kütləvi etirazının daha da genişlənməsinə dəstək verirlər:** "Məsələn, uzun illərdir ABŞ və dünya siyasətinə təsir imkanları olan Milyarder Corc Soros Trampı siyasətdən uzaq fırıldaqçı adam adlandırıb. Eyni zamanda proqnozlaşdırıb ki, belə bir adamın hakimiyyəti uzun sürə bilməz. Yeni prezidentin impiçmenti məsələsi gündəmə gələ bilər. Keçmiş dövlət katibi Con Kerri isə Tramp əleyhinə mitinqə öz iti ilə qatılıb. Sorosun çıxışını Tramp əleyhinə başlayan etirazlara təbliğati dəstək, Kerrinin şəxsən mitinqdə iştirakını isə anti-Tramp prosesinə açıq dəstək və bir çox qüvvələrə mesaj saymaq olar. Mitinqlərdə çıxış edənlərin çox ABŞ-ın tanınmış ulduzlarıdır. Amerikada "dərin dövlət" deyilən bir anlayışı mütləq qəbul etmək lazım gəlir. Dərin dövlət və müəyyən siyasi institutlar prezident hakimiyyətinin qeyri-məhdud hakimiyyətə çevrilməsinə imkan vermir. ABŞ-ın maraqlarına uyğun olmayan qərarlar qəbul edildikdə bu siyasi institutlar - Senat, Konqres, Mərkəzi Kəşfiyyat İdarəsi, Pentaqon, Dövlət Departamenti həmin qərarı ya boykot edir, ya da tormozlayır. Dərin dövlətin əsas qollarından olan Pentaqonun yeni rəhbəri indidən prezidentə qırmızı xətləri göstərməyə başlayıb".

**Q.Hüseynli onu da vurğuladı ki, başlanan proses, verilən bəyanatlar onu deməyə əsas verir ki, yeni prezident Donald Trampı da, dünyanı da təlatümlü günlər gözləyir:** "Hətta Trampın prezidentlik fəaliyyəti faciəvi ola bilər. Onun bir müddət sonra impiçmentə məruz qalması da istisna deyil. Artıq çox insanlar Donald Trampın uğurlu prezidentliyinə bel bağlamırlar".

❑ Etibar SEYİDAĞA

# Lavrovun dediklərinə sərt reaksiyalar gəlməkdə davam edir

## Akif Nağı: "Azərbaycan Rusiya qarşısında öz tələb-mövqeyini açıq ortaya qoymalıdır"

## Hafiz Hacıyev: "Elmar Məmmədyarovun apardığı siyasətin sonluğu belə olmalı idi"

**Rusiyanın xarici işlər naziri Sergey Lavrovun bir həftə öncə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı azərbaycanlı jurnalistin sualına verdiyi cavab ətrafında müzakirələr səngimir. Hər keçən gün Rusiyanın XİN rəhbərinin ünvanına səslənən tənqidi fikirlər artır.**

Lavrovun "Dağlıq Qarabağ ərazisində güc əməliyyatlarının və döyüş hərəkətlərinin keçirilməsi Azərbaycanın daxili işi deyil" kimi fikirlərinə Azərbaycan ictimaiyyətinin bütün təbəqələri sərt təpki göstərir və Rusiyanın bir daha təcavüzkar ölkənin tərəfində olduğunu bildirirlər.

**Qarabağ Azadlıq Təşkilatının (QAT) sədri Akif Nağı hesab edir ki, Lavrov bu açıqlaması ilə birbaşa Rusiyanın mövqeyini ortaya qoyub:** "Lavrovun fikri birmənalı şəkildə qəbul oluna bilməz. O, uzun illərin diplomatıdır, nə dediyini yaxşı bilir. Bu baxımdan, hesab edirəm ki, onun fikirləri Rusiyanın mövqeyidir. Açıq şəkildə bildirdi ki, bu, Azərbaycan və Ermənistanla yanaşı, həm də Rusiyanın işidir. Bu, Rusiyanın imperialist mövqeyindən, niyyətlərindən və regionda apardığı siyasətindən geri çəkilmədiyindən xəbər verir. Azərbaycan bu açıqlamaya uyğun mövqe tutmalıdır. Əgər Rusiya bu münaqişənin həllində açar rolunu oynayırsa, mövqeyini bu şəkildə ortaya qoyursa, o zaman Azərbaycan da öz çıxarlarını etməlidir. Rusiyaya hər hansı bir ümid etmək mənasızdır. Rusiya böyük dövlətdir və bu danılmazdır. Amma ölkəmizin də gücü, Kremlə təsir imkanları var. Azərbaycan özünü zəif tərəf kimi göstərməməlidir. Bu günlər rəsmi Moskvanın ölkəmizlə sıx əlaqələri var, Azərbaycanla bağlı maraqları da ortadadır. Ölkəmizin Türkiyə kimi müttəfiqi var. Rusiya da Türkiyə ilə yaxınlaşmaq, əlaqələr qurmaq məcburiyyətindədir. Çünki dünya Kremli təcrid etmək istəyir. Rəsmi Moskvanın Azərbaycan və Türkiyə ilə bağlı ciddi maraqları var. Bundan ölkəmiz məharətlə istifadə etməlidir. Elə bir vəziyyət yaranıb ki, Azərbaycan açıq şəkildə Rusiyanın qarşısında öz tələbini, mövqeyini ortaya qoymalıdır. Amma bunun əksini görürük, rəsmi Bakı sanki Kremldən çəkinir".


Sergey Lavrov

**Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev Rusiyanın XİN rəhbərini top atəşinə tutdu:** "Bizim torpaqları Ermənistan deyil, Rusiya işğal edib. Bu torpaqları ermənilərə hədiyyə veriblər. Əbəs yerə vaxt itirib, Ermənistanla danışıqlar aparırıq. Bu məsələdə Rusiyanın mövqeyi daha önəmlidir. Lavrov məncə ermənidir. Son 20 ildə bizim məmurlarımızın bizi necə aldatdıqlarını Lavrov bu açıqlaması ilə ortaya qoydu. O, ölkəmizin müstəqilliyinə şübhə toxumu səpdi. Necə yəni bu münaqişə daxili işimiz deyil? BMT-nin 4 qətnaməsi var, Azərbaycan bir sıra beynəlxalq konvensiyalara qoşulub. Biz özümüzü aldada-aldada gedirik. Ona sual verən jurnalistimizə minnətdaram. O şəxsə qəhrəman adı verməliyik. İstəyirik ki, hər şey içimizdə gizli qalsın. Qarabağı bu gün, sabah, yaxud o biri gün azad etməklə bağlı yalan vədlər veririk. Bəzən də Rusiyanın bu problemi həll etdiyi barədə fikirlər səsləndirilir. Münaqişəni belə həll edib? Elmar Məmmədyarova demək lazımdır ki, nazir olduğun gündən bu günə qədər yalan danışdığını Lavrov ortaya qoydu. Bunlar istəmirlər ki, kiminləsə pis olsunlar. Nəyə görə o jurnalisti işdən çıxarırlar? O yazıq sual verərək həqiqəti üzə çıxarıb. Elmar Məmmədyarov və Prezident Aparatında xarici məsələlərə baxan şöbə müdiri istefa verməlidir. Bir millət olaraq toparlanmalı, ortaq mövqe ortaya qoymalıyıq. Bütün dünya görməlidir ki, xalq olaraq Dağlıq Qarabağ məsələsində yumruq tək birləşmişik. Bilməliyik ki, Dağlıq Qarabağ məsələsi Azərbaycanın daxili işidir. Güclü ordumuz var, prezidentin sayəsində bunu əldə etmişik. İstəsək Dağlıq Qarabağda hər şeyi edə bilərik, çünki o torpaqlar bizimdir. Niyə bunu edə bilmirik, bax bunu düşünməliyik. İndiki hakimiyyətin dövründə ərazilərimiz azad olunmasa, mən demişəm, prezident olanda üç aya torpaqları azad edib, paytaxtı Xankəndinə köçürəcəm. Konkret siyasət ortaya qoymalıyıq: ya Rusiyanın, ya da Qərbin yanında olmalıyıq. Amma bu gün bu mövqe yoxdur, qalmışıq ortalıqda. Elmar Məmmədyarovun apardığı siyasətin sonluğu belə olmalı idi".

❑ Cavanşir ABBASLI






# Türkiyə MİT-in azərbaycanlı zabitinin sensaion həyat və ölüm hekayəsi - Hiram Abas

## "Kurtlar Vadisi"ndə Aslan Akbey obrazı kimi təqdim olunan əfsanəvi kəşfiyyatçının qətli, üstündən 27 il keçməsinə rəğmən, hələ də açılmır

***Bu yazı Türkiyə Milli İstihbarat Təşkilatını, əslinə qalsa, yenidən qurmuş, onu bir növ redaktə edib müasir tələblərə uyğunlaşdırmış məşhur həmyerlimiz, Güney Azərbaycan, Təbriz mənşəli xüsusi xidmət zabiti Hiram Abasın şirin-acı xatirəsinə həsr edilir.***

**Dünyanın bir çox paytaxtlarında, belə deyək, bir növ "Casus qüllələri" mövcuddur. Nyu-Yorkun əkiz göydələnlərini tirajlayıb təkrarlayan bu silsilənin bir oxşarı da 1959-cu ildə Tehranda inşa edilmiş "Plasko" ticarət mərkəzi idi, digəri İstanbulun Taksim meydanındakı "İnternasional" hoteli.**

Yazımızın qəhrəmanı Hiram Abas vaxtilə 1977-78-ci illərdə bu hər iki göydələnin, ehramın zirvəsinə qalxıb, bəli... Bir də "bəli"... Ordan açdığı yaylım atəşləri ilə həm öz yeni vətəni Türkiyənin taleyini dəyişib, həm də köhnə vətəni İranın. "Necə baş verib bu hadisə, hansı amala qulluq edib" sualına cavab verməmişdən öncə, sizi Tehrandakı "Plasko" göydələnin gizli tarixi ilə tanış etməyə məcburam.

***

Casus göydələnlərinin, casus hiramlarının, ehramlarının zirvəsindən atəş açmaq fürsəti, hər agentin tale payına düşmür. Tale bu imkanı iki dəfə yalnız bir nəfər üçün yaradıb - əfsanəvi kəşfiyyatçı, həmyerlimiz Hiram Abas üçün.

Tehrandakı "Plasko" casus qülləsinin təməli, 1960-cı illərdə, yəni hələ şah dönəmində yəhudi icmasının rəhbəri kimi tanınan Həbib Elğanian tərəfindən qoyulub. Elə ilk günlərindən ticarətlə casusluğu öz divarları arasında birləşdirən bu bina uzun zaman peşəkar kəşfiyyatçılar arasında "Casus qülləsi" kimi tanınıb. Binanın 17-ci mərtəbəsindən elə şah dövründən üzü bəri bütün Tehran sakinləri, o cümlədən yaxındakı diplomatik missiyalar dinlənərək nəzarətdə saxlanılıb.

Hələ şah dövründə təqib olunan H.Elğanian bəzi gizli əməllərinə görə 1975-ci ildə həbs olunub, 1979-cu ilin mayında isə yeni hökumət tərəfindən İsrail casusu kimi edam edilib. Taleyi müəyyən qədər Hiram Abasın həyatını, milli mənşəyini təkrarlayır. Anası Fatma Roksan Abas tərəfdən yəhudi qanı daşıyıcısı olması faktı, Hiram Abasa başqalarıyla müqayisədə elə bəribaşdan üstünlük yaradıb. 1932-ci ildə İstanbulda, Bosfor sahillərindəki dəbdəbəli villaların birində doğulmuş Hiram Abas, öz ağır yumruq zərbələri ilə hələ lap uşaqlıqdan öz yaşıdları arasında yaxşı tanınıb. 1957-ci ildə Ankara Universiteti Siyasət Bilgilər Fakültəsini əla qiymətlərlə bitirən Hiram Abas az sonra Türkiyə kəşfiyyatının ana məbədində - MİT-də çalışmaya başlayır. Əvvəlcə okeanın o tayında xüsusi hazırlıq keçərək viski içməyi öyrənir. Sonra MİT agenti kimi Beyruta ezam edilib orda keçir məşhur İsrail kəşfiyyatı "MOSSAD"ın tam ixtiyarına. 1968-71-ci illərdə dəfələrlə Fələstin qaçqın düşərgələrinə gizlincə sızıb peşəkar qatil, tətikçi kimi tanınır bu qəliz ünvanlarda. Qısası, Hiram Abasın keçdiyi yerlərdən heç vaxt insan cəsədləri əskik olmayıb.

Məhz o qanlı-qadalı günlərdən sonra Hiram Abas öz karyera pilləkanında ən yüksək vəzifələri tutaraq Türkiyədəki Amerika casus şəbəkəsinin rəhbəri Dueyn Klarricin tam etimadını, sevgisini qazanır. Dostlar birləşib Türkiyədəki tam məxfi "Kontrqerilla" ordusunu Türkiyə soluna, kommunistlərinə qarşı səfərbər edirlər. Nəticədə minlərlə türk solçusunun qanı sel olub Bosfor sularına qarışır.

Məsələnin gizli tərəflərini öyrənmək istəyirsinizsə, Pentaqona məxsus 1949-cu il 28 mart tarixli strateji konsepsiyanın JSPC 891/6 əlavəsini oxumağınız məsləhətdir. Sənəddə türk millətçiləri, bozqurdlar Pentaqonun gizli müttəfiqi elan edilir. Göstərilir ki, bozqurdlardan, millətçilərdən gizli ordu yaradıb onu türk solunun cəlladına çevirmək nəinki mümkündü, həm də çox vacibdi.

Unutmayın, kağız üzərində çox gözəl, qəşəng səslənən bu cür qərarlar öz cari icraatçısını tapmasa, qara qəpiyə də dəyməz. Pentaqon hərbi kəşfiyyatı bu sahədə Türkiyə siyasi elitasını dişinə vurub, əvvəl gəlib dayanır Alparslan Türkeş, sonra Hiram Abas üzərində. Türkeş hərəkatın xarizmasını təmin edir, Hiram Abas taktika və strategiyasını. Təşkilatın beş gizli şöbəsi varmış - birinci şöbə, qətllərə, adam oğurluğu, dindirmələrə cavabdehdi, ikinci şöbə tam məxfi geniş antikommunist əməliyyatlarına. Üçüncü şöbə Kiprə nəzarət edir-




di, dördüncüsü, özü kimi digər gizli NATO təşkilatları ilə əməkdaşlığı təmin edir, bəzi əməliyyatların təhlükəsizliyini qoruyurdu. Beşinci şöbənin səlahiyyətləri administrativ idi. Arxivlər-filan bu şöbəyə tapşırılmışdı, deyilənə görə.

Tək Türkiyədə deyil, əksər Qərb ölkələrində mövcud olan bu təşkilatlar öz aralarında məxfi ələqə saxlayır, vaxtaşırı birgə əməliyyatlara qatılırdılar. Beləlırinə ovaxtkı Latın Amerikasında "ölüm eskandronları" deyib, adını çəkincə, qorxudan uşaqları küçələrdən evə səsləyərdilər. Hiram Abas bu ölüm eskadronlarının türk şöbəsini hazırlayıb 1977-ci ildə onları casus qülləsinə - Taksimdəki "İnterkontenental" hotelinə cəm edir.

***

Taksimdəki bu məşhur hotel o vaxtlar həm də mason ehramı kimi tanınırdı. Sahibi - beynəlxalq "İTT" şirkəti, 1973-cü ildə Çilidə baş vermiş Pinoçet qiyamının baş sponsoru kimi də məşhurdur. 1


Hürriyet
Koruması olmayan Hiram Abas, arabasının içinde 4 kurşunla vuruldu
MİT'in eski patronu öldürüldü

may 1977-ci ildə mülkü geyimli Amerika zabitləri ilə birgə otelə daxil olan Hiram Abas əmr verir ki, qapıları kip qapayıb içəri kimsəni buraxmasınlar. Taksimdəki yarım milyonluq 1 may nümayişini hotel pəncərələrindən bitta-bitta, dəqiqəbədəqiqə izləyən Hiram Abas sonra, telsizi əlində sıxaraq xüsusi "Taksi" siqnalını öz həmkarlarına - dünyanın dörd guşəsindən Taksimə yığılmış "Ölüm eskandronları" üzvləri, tətikçilərə ötürür. Dəstənin rabitə təminatını italyanlar təmin edirmiş, silahla, sursatla təchizatını Kolumbiya, Argentina eskandronçuları. Yaylım atəşlərini Braziliya həmkarları, türk bozqurdları açıb, meydandakı nümayişçiləri al-qana boyamalıymışlar.

Türkiyə Milli İstihbarat Təşkilatı rəisinin müavini Hiram Abas "casus qülləsinin" - Taksimdəki "İnterkontenental" hotelinin, mason ehramının zirvəsinə ilk dəfə bax bu zaman qalxmağı bacarır, bəli... Snayperləri hotel damına gizləyib əmr verir darıxmasınlar. Start siqnalını gözləsinlər.

Damağındakı "Kamel" siqareti sönən kimi Hiram Abas, məxfi siqnalı havaya ötürür. 20 dəqiqə sürən amansız yaylım atəşləri nəticəsiz qalmır. Yüzlərlə kommunistin yaralanıb qətlə yetirildiyi o məşum gündən sonra Türkiyə solçuları hələ uzun zaman özlərinə gələ bilməyəcəklər.

***

"Qırmızı təhlükə"ni təkcə Bosfor sahillərindən deyil, İrandan da qovub çıxarmaq vəzifəsi o vaxtlar, görünür, talenin hökmü ilə Hiram Abasa həvalə edilibmiş sanki.

İstanbuldan sonra kommunist təhlükəsi Tehrana keçir elə bil. 1978-ci ilin 8 sentyabr tarixində yüz minlərlə solçu etirazçı paytaxtın Jalə meydanına yığılıb ardı-arası kəsilmədən öz şüarlarını havada səsləndirməyə başlayırlar. Şah qvardiyası "Cavidan", etirazçıların önünü Jalə meydanında kəssə də dinc əhalini güllələran etməyi özünə layiq iş bilmir. Bu vaxt Tehrandakı casus qülləsindən - "Plasko" göydələninin damından, eynən Taksimdəki kimi, nümayişçilərə qarşı bir neçə yaylım atəşi açılır. Etirazçılar, atəşin ünvanını səhv salıb elə bilirlər gülləleri atanlar şah sərbazları, şahın elitar "Cavidan" diviziyasıdır. Ara qızışır, məzhəb itir. Yüzlərlə etirazçı meydanda həlak olur. Etiraz dalğaları bütün ölkəni bürüyüb islam inqilabı ilə nəticələnir lap axırda.

Sonrakı tədqiqatlar göstərir ki, Jalə meydanında etirazçılara qarşı atılmış güllələr, İran ordusunda rastlanmır. Güllələr ötən il Taksimdə atılmış güllələrin eynidir, vəssalam.

***

O vaxtlar, bəli, Vaşinqtonu bircə məsələ narahat edirdi - qırmızı kommunist təhlükəsi. Kommunistləri məhv etmək xatirinə, amerikalılar islamçılara göz yumub, İrandakı inqilabın öz sol məzmununu itirərək dini məna almağına tam razı idilər.

Amma bir var quru-quru sözlər, yağlı vədlər, bir də real məxfi əməliyyatlar. Amerikalılar, Tehrandakı etiraz dalğaları ilə təkbətək qalıb özlərini itirdikləri vaxt




yadlarına yenə də Hiram Abas düşür.

Başının dəstəsi ilə Tehrana gələn Hiram Abas, öz snayperlərini, Taksimdəki kimi, "casus qülləsi"nin - Plasko göydələninin 17-ci mərtəbəsinə toplayıb cəmləyir. Şahın izni-filanı olmadan əmr verir snayperlər siqnal əmrini eşidincə etirazçıları güllələbaran etsinlər. Yaylım atəşləri Plasko göydələninin damından açılınca, etirazçılar başlarını itirib qaçırlar. Meydanda panik anlar yaşanır. Yüzlərlə solçu aldığı yaralardan dünyasını dəyişib, günahkar olaraq qarşılarında İran şahını görür. İran inqilabı, öz sol məzmunu məhz bu tarixdə itirib, özünə yeni - islami doyərlər qazanır.

Son nəticədə İran solçuların deyil, islamçıların əlinə keçir. NATO-ya, amerikalılara da elə məhz bu lazım idi o vaxtlar.

***

Hirəm Abasın prototipi "Kurtlar Vadisi" serialında "Aslan Akbey" kimi təqdim olunur. Əslində filmdə "Aslan Akbey" kod adıdır. Aslanın ölümündən sonra məlum olur ki, onun gerçək ismi Abas Üstüoğlu imiş. Ssenarist və rejissor artıq ictimai şüura Hirəm Abasın obrazını yaratdıqları haqda mesaj verirlər.




Xatırladaq ki, "Kurtlar Vadisi"nin çəkilişlərinə 2002-ci ilin dekabr ayından başlanıb. Film 2003-ün yanvarın 15-dən yayıma başlayıb və böyük uğur qazanıb. Bu serialda Türkiyədə vaxtilə baş verən gizli olaylara ciddi şəkildə işıq salınıb. Onlardan biri də Hirəm Abas mövzusudur.

O, Amerika silah firmalarının Türkiyə nümayəndəliyində çalışarkən 26 sentyabr 1990-cı il səhəri sui-qəsdə uğrayır. Evinin yaxınlığında, bələdiyyə işçisi kimi geyinmiş insanların açdığı çarpaz atəşin ortasında qalan Abas hadisə yerindəcə ölür. Cinayəti Dev-sol *(Devrimçi sol hərəkatı-red.)* öz boynuna götürsə də, bəziləri bunu ciddiyə almır, sifarişçiləri tam başqa ünvanlarda axtarırlar.

Hiram Abasın qətli ilə bağlı məxfi sənədlər tozlu rəflərdə çürüyüb getməkdədir. Onun öldürülməsi haqda indiyədək ortaya doğru-dürüst məlumat qoyulmayıb.

***

Hiram Abas MİT müstəşarı olduğu dövrdə təşkilatı tam hərbiləşdirmək istəyib. O, bu məqsədlə xeyli hərbçini MİT-ə toplamaq üçün onlarla danışıqlar aparıb. Lakin onun bu təşəbbüsü Türkiyə dövlətinin bəzi sinir nöqtələrini hərəkətə keçirib. Nəticə Abas təşkilatdan istefa verib. Hirəm Abas çox cəsur insan olmaqla bərabər, silahdan olduqca gözəl istifadə edən biri olub. Onun açdığı atəşin hədəfə dəyməməsi mümkün deyilmiş. Elə bu səbəbdən də Hirəm Abası arxadan çarpaz atəşlə qətlə yetiriblər. Əfsanəvi xüsusi xidmət zabiti barədə Türkiyədə çəkilmiş sənədli filmdə deyilir ki, o, sarışın qadınları görəndə təsirlənirmiş. Məhz bu zəif nöqtəsini bildikləri üçün maşını hərəkətdə olduğu vaxt qarşısından bir sarışın qadın çəkir. Əli daim tətikdə olan Abasın fikri dağıldığı üçün qatillər ona bu anında hücuma keçirlər və çoxdan planlaşdırılan niyyət həyata keçir.

Hirəm Abas uzun illər Türkiyə siyasətinə ciddi təsir edib. Onun mövcudluğu, Milli İstihbarat Təşkilatı ilə bağlı mövqeyi bir çoxlarında narahatlıq yaradıb. Bəzi iddialara görə, Hiram Abas bir vaxtlar mübarizə apardığı solçu terror təşkilatlarının deyil, ovaxtkı Türkiyənin siyasi çaxnaşmalarının qurbanı olub...

❑ **Həmid HERİSÇİ**

YENİ MÜSAVAT
N 15 (6629) 24 yanvar 2017

# Azərbaycanın fəal qadınlarından "anti-Tramp" aksiyalarına reaksiyalar

**ABŞ-ın yeni prezidenti Donald Tramp vəzifəsinin icrasına başladıqdan sonra dünyanın bir çox ölkələrində qadınlar etiraz aksiyaları keçirməyə başlayıb. Təkcə andiçmə mərasimi günü, yanvarın 20-də Vaşinqtonda zərif cinsin minlərlə nümayəndəsi Trampın prezidentliyinə etirazlarını bildirmək üçün yürüşə çıxıb. Onların arasında dünyaca məşhur müğənni Madonna da olub. Hətta müğənni CNN telekanalının canlı yayımında prezidentin ünvanına iki dəfə ağır söyüş söyüb. Telekanal bu səbəbdən canlı yayımı dayandırmalı olub. Qeyd edək ki, yürüş iştirakçıları qadınlar, homoseksualların hüquqları, immiqrantlar, qadınların abort hüququ, irqçilik barədə, habelə iqlim dəyişməsi məsələsində Donald Trampın mövqeyinə etiraz ediblər.**

Belə ki, "Access Hollywood" proqramının yazısı üzə çıxandan sonra qadınların Donald Trampa pis münasibəti pik həddə çatıb. Donald Tramp seçki kampaniyası dövründə qadınlara münasibətinə, o cümlədən "Fox News" telekanalının aparıcısı



**Mehriban Zeynalova:** "Böyük bir dövlətin rəhbərinin bu cür mesajları çox narahatedicidir"



**Mirvari Qəhrəmanlı:** "Ölkəmizdə bu cür aksiyaların keçirilməsinə heç vaxt imkan verilməyəcək"



**Mehriban Vəzir:** "Azərbaycan qadınının Trampa deməyə heç bir sözü yoxdur"

Meqin Kelli haqqında nalayiq fikirlərinə görə kəskin tənqid edilib.

Analoji olaraq bu cür yürüşlər təkcə Vaşinqtonda deyil, ABŞ-ın digər şəhərlərində də keçirilib. Və hətta dünyanın bir çox ölkələri, o cümlədən Avropa və Afrika ölkələrində də qadınların hüquqlarına dəstək olaraq yürüşlər təşkil olunmağa, qadınlar öz həmcinsləri ilə həmrəylik nümayiş etdirməyə başlayıblar. Təkcə Londonda keçirilən "Anti-Tramp" aksiyasında 100 mindən çox, Vyanada 2 min, Cenevrədə keçirilən etiraz aksiyasında əksəriyyətinin uşaqlı qadın olduğu minədək şəxsin iştirak etdiyi bildirilir. Finlandiyanın paytaxtı Helsinkidə, Keniyanın paytaxtı Nayrobidə də "anti-Tramp" aksiyaları keçirilib.

Bəs Azərbaycanın ictimai fəal qadınları "anti-Tramp" aksiyası keçirərək həmcinslərinə dəstək olmağı düşünürmü? Bu sualla bir neçə ictimai fəal qadınlara müraciət etdik.

**"Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova keçirilən aksiyalara dəstək verdiyini bildirdi:** "Məsələ burasındadır ki, Trampın mesajları çox narahatçılıq doğurur. Bu yaxınlarda "Qadın insandırmı?" deyə fikir səsləndirmişdi. Hətta qızı ilə də bağlı xoşagəlməz fikirlər demişdi, "Əgər o mənim qızım olmasaydı, mən onu saxlayardım" kimi ifadələr və sairə... Yəni qadına daha çox əşya, qeyri-insani münasibət bəslədiyini, alət kimi baxdığını bəyan edir. Böyük bir dövlətin rəhbərinin bu cür mesajları çox narahatedicidir. Təbii ki, mən Amerikanın daxili işinə qarışa bilmərəm. Amma Amerika bütün ölkələrin daxili işlərinə qarışdığına görə biz bu narahatçılığı bəyan edirik. Mən qadınların o aksiyalarına dəstək verirəm. Çünki orda baş verəcək hadisələrin nəticəsindən narahatam. Trampın qadınlar haqqında səsləndirdiyi deyimlər bir növ İŞİD-in deyimləri ilə oxşardır. Yəni qadınlar haqqında səsləndirdiyi ifadələr "qadın insan, yoxsa heyvandırmı?" kimi ifadələrə bənzəyir".

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı isə qeyd etdi ki, ölkəmizdə etiraz keçirmək imkanı məhduddur:** "Trampın təkcə qadınlarla bağlı deyil, həm də jurnalistlərə qarşı aqressiv çıxışları oldu. Mən məmnuniyyətlə dəstək verərdim. Amma bizim ölkə elədir ki, sərbəst toplaşma azadlığı pozulur. Dünyanın bir çox ölkələrində Amerika insanlarına böyük dəstək aksiyaları keçirildi, həmrəy olduqlarını nümayiş etdirdilər. Böyük məmnuniyyətlə o cür aksiyalara qoşulub həmrəyliyimi bildirərdim. Lakin ölkəmiz başqa ölkələrə nisbətdə çox ehtiyatlı mövqe tutur. Ona görə də belə aksiyaların keçirilməsinə heç vaxt imkan verilməyəcək".

**Yazıçı-publisist Mehriban Vəzir isə məsələyə bu cür münasibət bildirdi:** "Mətbuatda yayılan məlumata görə, dünya miqyasında 5 milyon qadın Trampın fikirlərinə görə etiraza qalxıb. Düşünürəm ki, Azərbaycan qadınının o qədər problemi var ki, onun Trampa deməyə heç bir sözü yoxdur. Azərbaycan qadını əgər ictimai fəallıq göstərirsə, öz dərdinə ağlamalı, öz hökumətindən nəsə istəməlidir. Tramp, hər halda, öz qadınlarına yüz dəfə artıq imtiyaz, hüquq verib. Biz heç o imtiyazlara malik deyilik. Ona görə də düşünürəm ki, bizim o aksiyalara qoşulmağımız bir qədər komik olar".

❑ **Xalidə GƏRAY**

# Azərbaycanlı hüquq müdafiəçiləri ABŞ-dakı həbsləri pislədi

**ABŞ-da yeni prezident Donald Trampın əleyhdarları həbs olunur. Belə ki, bir neçə gündür ki, ABŞ-ın Vaşinqton, Los-Anceles və Nyu-York daxil, bir sıra şəhərlərində Donald Tramp əleyhdarlarının kütləvi etiraz aksiyaları keçirilir.**

Türkiyə mətbuatının yazdığı məlumata görə, aksiyada ümumilikdə 5 minədək etirazçı iştirak edib. Onların polisin dağılışmaq çağırışına məhəl qoymaması isə həbslərə də səbəb olub.

Vaşinqton Polis İdarəsinin rəisi Peter Nevsham mətbuata açıqlamasında bildirib ki, qarşıdurmalar zamanı 6 polis əməkdaşı müxtəlif dərəcəli bədən xəsarətləri alıb. 217 etirazçı isə saxlanılıb.

Onu da qeyd edək ki, ötən ilin noyabr ayında da Donald Trampın prezident seçilməsinə qarşı aksiya keçirən 3 min nəfərdən 150-si polis tərəfindən saxlanılmışdı...

Azərbaycanda və dünyanın digər ölkələrində siyasi fəallar saxlanılan, həbs edilən zaman dünyanın tanınmış hü-



**Səadət Bənəniyarlı:** "Həbs olunanlar heç bir qanun pozuntusuna yol verməyiblərsə, onların azadlığa buraxılmasını biz də tələb edirik"



**Səidə Qocamanlı:** "Bu fakt göstərdi ki, hər bir ölkədə azad sözə qarşı dözülməzlik var"

quq təşkilatları, eləcə də Qərbin bəzi hüquqşünasları buna etiraz edib, öz mövqelərini ortaya qoyurlar. Dövlət Departamenti də dərhal bəyanatlar verir.

Zaman-zaman səslənib ki, demokratiya heç bir dövlətin daxili işi deyil. Elə isə dünyaya demokratiya dərsi keçən ABŞ-da yaşananlarla bağlı bizim hüquq müdafiəçiləri nə düşünürlər?

**"Yeni Müsavat"a danışan hüquq müdafiəçisi Səadət Bənəniyarlı bildirdi ki, əgər həbs olunanlar heç bir qanun pozuntusuna yol verməyiblərsə, onların azadlığa buraxılmasını dəstəkləyir və tələb edirlər:** "Göründüyü kimi, aksiyalarda minlərlə insan var idi. ABŞ-ın məhkəmə sistemi kifayət qədər demokratik quruluşlu bir sistemdir. Hesab edirəm ki, orada qanunsuz həbslərin genişlənməsi və ya baş tutması mümkün deyil. Hər halda, bütün məsələlər aydınlaşdırılmalıdır. Əgər qanun pozuntusuna yol verilməyibsə, onların hamısı azadlığa çıxacaqlar. Qanunu pozmasalar belə, həbsdə saxlanılacaqlarsa, o zaman məsələ başqadır. Bu baxımdan, proseslərin sonunu gözləyək. Orada hər bir şəxsin özünün yəqin ki, müdafiəçisi, vəkili var. Məsələ aydınlaşdıqdan sonra biz də öz fikrimizi bildirəcəyik. İndidən konkret olaraq nə isə söyləmək mümkün deyil".

**Hüquq müdafiəçisi Səidə Qocamanlı isə "Yeni Müsavat"a söyləyib ki, söz və ifadə azadlığının olduğu ölkələrdə bu cür hallar dözülməz və yolverilməzdir:** "Demokratik və açıq dövlətdə yaşayan hər bir kəsin öz fikrini söyləmək ixtiyarı var. Amerika da bu məsələlərdən kənarda qalan ölkə deyil. Orada baş verən həbs hadisələrini qınayıram. Bu, belə olmamalı idi. Ancaq hər halda, düşünürəm ki, həbs olunanların hamısına məhkəmə yolu ilə 10-12 il iş verməyəcəklər. Yəqin ki, onları tezliklə azadlığa buraxacaqlar. Lakin buna baxmayaraq, bu fakt bir daha göstərdi ki, Amerika, Avropa olmağından asılı olmayaraq, hər bir ölkədə indiki zamanda azad sözə qarşı dözülməzlik var".

**Hüquqşünas Ələsgər Məmmədli isə məsələyə fərqli aspektdən yanaşdı. O bildirdi ki, ümumilikdə iki cür aksiya olur:** "Bunlar dinc və qeyri-dinc aksiyalardır. Dünyanın heç yerində dinc aksiyalara hər hansı bir qanunsuz müdaxilə və ya məhdudiyyət qoyulmur. Ancaq qeyri-dinc aksiya başqalarına zərər verir. Bu zərər mal-mülkə və şəxsə yönəlikdirsə, onların önlənməsi və bu prosesdə iştirak edənlərin də təcrid olunması baş verir. Bu, dünyanın hər yerində belədir. Vaşinqtonda baş verən məlum hadisələri mən canlı yayım vasitəsilə izləyirdim. Müşahidə etdim ki, doğrudan da orada kütləvi şəkildə ətrafa zərər verməyə yönəlmiş davranışlar var idi. Vitrinləri qırırdılar, ətrafı yandırmağa cəhd edirdilər və sairə. Bu isə normal bir davranış deyil. Azərbaycanda isə daha çox dinc aksiyalar zamanı müdaxilələr baş verib. Ona görə də burada baş verən hadisələrlə Amerikada yaşananları eyniləşdirmək doğru deyil. Amerikada dinc aksiya öz formatını dəyişib və ətrafa zərər verir. Belə olduğu təqdirdə ona müdaxilə etmək normaldır. Demokratik ölkələrdə hansısa təbəqə nəyəsə narazıdırsa, ona qarşı rəy bildirməlidir və bildirir. Əgər bu rəy bildirmə müəyyən çərçivəni aşırsa, bu, durdurulmalıdır və durdurulur. Amerikada da yəqin ki, hər şey hüquq çərçivəsində baş verir".

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 15 (6629) 24 yanvar 2017

**Yanvarın 20-də "Şeremetyevo" hava limanında "Moskva-Roma" reysi ilə "Cemo" ləqəbi ilə tanınan 41 yaşlı "qanuni oğru" Cemal Mikeladze İtaliyaya ekstradisiya olunub. 2014-cü ilin iyun ayında "Cemo"ya Bari məhkəməsinin hökmü ilə 15 il müddətinə qiyabi olaraq həbs cəzası kəsilib və barəsində axtarış elan olunub. İtaliya polisi həmin vaxt "qanuni oğru"nun gizləndiyini yox, həbsdə olduğunu bilirdi. "Cemo" 2014-cü ilin fevralında narkotik saxladığına görə 3 illik həbs cəzası almışdı və Kemerovo şəhərində həbsxanada idi. Vəkilləri "Cemo"nun cəzasının 2 il 2 aya endirilməsinə nail olublar və o, ötən həftə Moskvadan İtaliyaya etap olunub.**

# "Lənkəranski"ni ələ vermiş "qanuni oğru" "cənnətə" göndərildi

## Ötən həftə İtaliyaya ekstradisiya olunan "Cemo" ləqəbli Cemal Mikeladze haqda yeni məlumatlar; onun "Lənkəranski" ilə bağlı yazdığı məktubda nələr vardı?

Primecrime.ru saytının xəbərinə görə, "Cemo" İtaliyada transmilli cinayətkar assosiasiyanın yaradılmasına görə axtarılırdı. Həmin assosiasiya müxtəlif ölkələrdə, o cümlədən İtaliyada bir sıra cinayət əməlləri - mənzil oğurluqları, təhdidlə pul alınması, rüşvət, qeyri-qanuni yollarla əldə olunmuş pulların "yuyulması", sənədlərin saxtalaşdırılması və s. törətməkdə ittiham olunur.

Onun sonrakı taleyi Rusiya vətəndaşlığının ləğv edilməsi ilə bağlı verdiyi şikayətdən asılı olacaq. Əgər məhkəmə "Cemo"nun vətəndaşlığını bərpa edərsə, o zaman cəzasını Rusiyada çəkə bilər ki, bu da az inandırıcı görünür. Çünki bundan əvvəl də Rusiya daha bir nüfuzlu "qanuni oğru" Merab Canqveladzenin ("Merab Suxumskli") də vətəndaşlığını ləğv edib. O da hazırda İtaliyadan Qazaxıstana ekstradisiyasını gözləyir... Ümumiyyətlə isə İtaliya həbsxanaları Rusiya ilə müqayisədə "cənnət" hesab oluna bilər.

Rusiya mənbələri iddia edir ki, "Cemo"nun polisin əlinə düşməsində onun düşməni, "qanuni oğru" Vaqif Süleymanovun ("Vaqif Bakinski") əli var.

Cemal Mikeladze 1976-cı ildə Gürcüstanda anadan olub. O, "qanuni oğru" adını 23 yaşında almasına baxmayaraq, tezliklə Moskvadakı gürcüstanlı kriminal qruplaşmalar arasında hörmət qazanıb. Deyilənə görə, "Cemo"nu kriminal dairələrdə cəlbedici edən onun adətən "oğrulara" xas olmayan xarizmasıdır.

"Cemo" kriminal aləmdə ötən il Türkiyədə qətlə yetirilən "qanuni oğru" Rövşən Canıyevin ("Lənkəranski") ən yaxın adamlarından biri kimi də tanınıb. Amma 2014-cü ildə həbs edildikdən sonra "Lənkəranski"ni satması kriminal aləmdə çaxnaşma yaratmışdı. Onun həbsdən hüquq-mühafizə orqanlarına yazdığı iddia edilən məktubunda "Ded Xasan"ın qətli ilə bağlı "sirlər açılırdı". Məktubda iddia edilirdi ki, "Ded"lə bağlı qətl planını müzakirə etmək üçün "Rövşən Lənkəranski", Merab və Levan Canqveladze qardaşları Romada görüşüblər. Sonrakı görüşdə isə Levan Canqveladzeyə "Val" tüfəngi verilib. Mikeladzenin məktubunda qətl planının maliyyəsinin və həyata keçirilməsinin əsas fiqurantı kimi "Rövşən Lənkəranski"nin adı keçirdi. Sonradan məktubu "Ded" klanının ortaya atdığı barədə şübhələr üzə çıxdı. Amma



bu iddialar bu günədək də nə təsdiq, nə təkzib edilib.

"Cemo"nun "Rövşən Lənkəranski"yə güvənərək özündən yaşca böyük "qanun oğru" "Vaqif Bakinski"yə "kəllə atması" da kriminal aləmdə uzun müddət müzakirə olunub. Rusiya KİV-lərinin onu yenidən xatırlatması isə onu göstərir ki, mövzu qapanmayıb.

Hadisə 2010-cu ildə "Rövşən Lənkəranski" ilə "Vaqif Bakinski" arasında "sxodka"da baş verib. "Lənkəranski" ilə V.Süleymanov münasibətlərini aydınlaşdırmaq üçün Rublevski yaxınlığında "Cemo"nun böyük qardaşı Mamukonun elit kottecində "sxodka"ya toplaşıblar. "Rövşən Lənkəranski" tərəfdən söhbətə "qanuni oğru"ların ağır artirelliyası hesab olunan Gela Kardava, "Robunzon" və "Paat Malenkiy" iştirak edib. Vaqif Süleymanov isə görüşə "Ded Xasan"ı təmsil edən "Vasi Voskreslə" gəlib. "Sxodka" məhz "Cemo" söz alandan sonra davaya çevrilib. Onun azərbaycanlı "qanuni oğru"ya iradına Vaqif Süleymanov adekvat cavab verib. "Cemo" "Vaqif Bakinski"ni vurmaq istərkən özü zərbə alıb. 2011-ci ilin iyununda hələ o zaman sağ olan "Ded" "Cemo"nu "qanuni oğru" adından məhrum edib. Bu qərarı o, "Cemo"ya hamının iştirakı ilə telefonda elan edib. "Lənkəranski"nin qətlinə qədər "Cemo" ilə münasibətlərinin hansı səviyyədə olduğunu indi demək çətindir. Amma "Cemo" nun "Lənkəranski" dən sonra "boy göstərəcəyi" gözlənilmirdi. Təsadüfi deyil ki, primecrime. ru "Cemoi"nun ekstradisiyası ilə bağlı xəbərə "Çao qenaçvale" *(gürcü dilində yoldaş, dost deməkdir-O.)* başlığı verib...

**❑ ORXAN**

# 1 saylı həbsxanada dustaqlar bahalığa etiraz edib - iddia

## Penitensiar Xidmət təkzib edir, məhbus yaxınları isə əksinə...

**Bakının Nizami rayonu ərazisində yerləşən 1 saylı cəzaçəkmə müəssisəsində məhbusların bahalığa etiraz etməsi haqda məlumatlar yayılıb. Həmin məlumatlara görə, müəssisədaxili mağazada qiymətlərin qaldırılması məhbusların ciddi narazılığına səbəb olub. Məhbuslar toplaşaraq qiymətlərin bahalaşmasına etiraz ediblər. Bundan sonra müəssisəyə qoşun yeridilib və etiraza qalxan məhbuslara zor tətbiq edilib. Bu yolla etirazın qarşısı alınıb.**

Adının çəkilməsini istəməyən məhbus yaxınlarından biri AzadlıqRadiosuna deyib ki, yanvarın 22-də məhbus qohumu görüş üçün müəssisəyə gedib və müəssisə qarşısında qoşun görüb: "Qohumlarımız 1 saylı cəzaçəkmə müəssisəsinə görüşə gedib. Heç kimə görüş verməyiblər, hamını qovub çıxardıblar. Səbəbi də həbsxanaya qoşun yeridilməsi olub". **Onun sözlərinə görə, cəzaçəkmə müəssisəsindəki məhbuslar döyülürmüş: "Dustaqların səsi, qışqırtısı**



**çölə gəlirmiş". Başqa bir məhbus yaxını deyib ki, yanvarın 22-də günorta 1 saylı həbsxanadakı məhbuslardan birinə baş çəkməyə gedib:** "Birdən qara maskalılar, əsgərlər doluşdular 1 saylı həbsxanaya. Hamımızı çölə çıxardılar. Bu həbsxanada məhbuslar bahalığa etiraz ediblər və buna görə Daxili Qoşun əsgərləri və qara maskalılar yeridilib. Məhbusları döyüblər, hətta "dubinka"larda qan izləri görən olub. Bir qrup məhbusu da qara maskalılar maşınlara doldurub harasa apardılar. Biz indi burda dayanmışıq, vəziyyət bir qədər sakitləşib. Məhbuslar deyir ki, içəridə çox bahalıqdır. Məsələn, çöldə 1 manat 10 qəpik olan siqaret içəridə 1 manat 80 qəpikdir. Bundan başqa, həbsxananın yeməkxanasında "perlovi"dan başqa heç nə verilmir. Buna etiraz ediblər, onların etirazına da belə zorla cavab verilib".

**Penitensiar Xidmət İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Mehman Sadıqov deyib ki, 1 saylı müəssisədə belə bir hadisə olmayıb:** "Ora nə qoşun yeridilib, nə də məhkumlar döyülüb. Daxili nizam qaydalarına uyğun müəssisədə fəaliyyət davam edir. Deyilənlər yalandır".

**Ombudsman Aparatı mətbuatda yayılan bu məlumatlara münasibət bildirib. Ombudsman Aparatının şöbə müdiri, Milli Preventiv Qrupun rəhbəri Rəşid Rumzadə APA-nın sorğusuna cavab olaraq bildirib ki, yayılan xəbərlərdən məlumatlıdırlar və hazırda araşdırma aparılır.** "Araşdırmanın nəticələri barədə yaxın günlərdə ictimaiyyətə əlavə məlumat veriləcək" deyə, o qeyd edib.

1 saylı cəzaçəkmə müəssisəsi ümumi rejimlidir. Nizami rayonunda, Böyük Şor qəsəbəsində yerləşir. Yerli mediada bir neçə dəfə burda məhbusların döyülməsi xəbərləri yayılıb. Penitensiar Xidmət bir qayda olaraq bu xəbərləri təkzib edib. Azərbaycandakı cəzaçəkmə yerlərində ərzağın bir neçə dəfə baha satılmasıyla bağlı yerli hüquq müdafiəçiləri də daha öncə məlumat yayıblar. Cəzasını çəkib çıxan keçmiş məhbuslar da həbsxanalardakı bahalığın adi hal olduğunu deyir.

**❑ E.HÜSEYNOV**

# Qəzada 2 şəxsi öldürdü... həbs olunmadı, təzminat davası da açdı

## "Övladlarımızın ölümünə bais olan şəxsin əməlinin ədalətli şəkildə araşdırılmasının təmin olunmasını xahiş edirik"

**2014-cü il sentyabrın 27-də Kürdəmir yolunda Ceyhun Oqtay oğlu İmaməliyevin və Ceyhun Babayevin ölümü ilə nəticələnən yol qəzası baş verib. İmaməliyev hadisə yerində, Babayev isə sonradan Kürdəmir rayon xəstəxanasında dünyasını dəyişib. Hər iki mərhumun yaxınları həmin gündən qəzanın törədilməsində günahkar bildikləri "Mercedes" markalı yük maşınının sürücüsü Elvin Quliyevin cəzalandırılmasını tələb edirlər. Onlar iş üzrə istintaqın qərəzli aparıldığını bildirirlər. Ceyhun Babayevin hüquqi varisi Şirxanım Fətəli qızı Babayeva, Ceyhun Oktay oğlu İmaməliyevin hüquqi varisi Oktay Kərim oğlu İmaməliyev və anası Nüşabə Şahvələd qızı Məşiyeva ölkə rəhbərliyinə, hüquq-mühafizə orqanlarının başçılarına müraciət edərək cinayətin ört-basdır olunmasının qarşısının alınmasını xahiş ediblər. Müraciət müəllifləri yazırlar: "27 sentyabr 2014-cü il tarixdə saat 21 radələrində Elvin Quliyev idarə etdiyi "Mercedes" markalı yük avtomobili ilə avtonəqliyyat hadisəsi törədib və nəticədə övladlarımız ölüb, onların birinin 3 azyaşlı uşağı, digərinin isə 2 azyaşlı uşağı atasız qalıb. Elvin Quliyev bu cinayətə görə azadlıqda qalıb. Üstəlik, bizi məhkəməyə verməklə təzminat tələb etməyi də özünə ar bilmir. Atası isə açıq-aşkar deyir ki, bu işin ört-basdır olunması üçün 40 min manat pul xərcləyiblər. Elvin Quliyevi məhkəmədə kimlərsə himayə etdi. Quliyev heç kimin ona gücü çatmayacağını bildirir. Hadisə nəticəsində öldürdükləri şəxslərdən maddi və mənəvi ziyan da tələb etməyi özlərinə rəva bilirlər. Məhkəmələr isə onların bu mövqelərini təsdiqləyirlər.**

Məhz bu səbəbdən də Elvin Quliyev və onun atası hüquq-mühafizə orqanlarına yalan deməkdən çəkinmirlər. Quliyevlər Baş Prokurorluğa, DİN-də deyirlər ki, maddi təzminatla bağlı şikayətlərindən imtina edirlər. Biz iş üzrə Baş Prokurorluq və Daxili İşlər Nazirliyində rəhbər şəxslərin qəbulunda olmuşuq. Onlar da deyiblər ki, 2 ailə başçısının ölümünə səbəb olmuş şəxsin nəinki ölmüş şəxslərə qarşı iddia qaldırmalarının qarşısı alınmalıdır, Elvin Quliyev mütləq olaraq cəzalanmalıdır. Lakin çox təəssüflər olsun ki, bu istiqamətdə heç bir tədbir görülməyib. Elvin Quliyevin atası Sahib adlı şəxs çəkinmədən deyir ki, oğlunun cəza almaması üçün 40 min manat xərcləyib. Bu halla bağlı şikayətlərimizə baxmayaraq hec bir araşdırma işi aparılmayıb".

**Məktub müəllifləri yazır ki, qəzadan sonra Elvin Quliyev və onun ailəsi qəzada öldürdüyü şəxslərin yaxınlarına başsağlığı belə verməyiblər. Əksinə, 2 nəfərin ölümünə səbəb olan qəzanı törədən Elvin Quliyev ölmüş şəxslərə qarşı pul tələbi ilə məhkəmədə iddia qaldırıb:** "Nizami Rayon Məhkəməsinin hakimi Rauf Əhmədov da Elvin Quliyevin əsassız iddiasını öz ədalətsiz və qanunsuz qərarı ilə təmin edib. Bu hal işin mülki tərəfidir.

Əsas məqam ondadır ki, 2 ildən çoxdur ki, oğullarımızın ölməsinə baxmayaraq Elvin Quliyev cəzalandırılmır.

Ona görə də bir daha güc strukturlarının rəhbərlərinə müraciət etməklə övladlarımızın ölümünə bais olan şəxsin əməlinin ədalətli şəkildə araşdırılmasının təmin olunmasını xahiş edirik".

**❑ E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 15 (6629) 24 yanvar 2017

# Azərbaycan daha 79 dövlət əmlakını hərraca çıxarır




**Əmlak Məsələləri Dövlət Komitəsi (ƏMDK) fevralın 21-də yeni hərrac keçirəcək. Komitənin mətbuat xidmətindən "Report"a verilən xəbərə görə, bu hərracda ümumilikdə 79 dövlət əmlakı özəlləşdiriləcək. Hərraca 22 səhmdar cəmiyyət, 19 kiçik dövlət müəssisəsi, 35 istifadəsiz qeyri-yaşayış sahəsi və 3 nəqliyyat vasitəsi çıxarılıb.**

Təklif olunan kiçik dövlət müəssisəsi və obyektləri paytaxtın Sabunçu və Qaradağ rayonları, Siyəzən şəhəri, Samux, Beyləqan, Goranboy və Bərdə rayonlarında yerləşir. Sabunçuda yerləşən əmlak 60 min manata, Samuxda yerləşən "Seyidlər" üzüm emalı zavodu 77,2 min manata, Bərdə şəhərindəki Texniklər Evi isə 60 min manata təklif olunur.

Özəlləşdirməyə çıxarılan paytaxtdakı qeyri-yaşayış sahələri Səbayel, Nəsimi, Sabunçu, Yasamal, Qaradağ, Nizami, Nərimanov və Qaradağ rayonlarında yerləşir. Digər qeyri-yaşayış obyektləri isə Sumqayıt və Mingəçevir şəhəri, Lənkəran, Biləsuvar, Hacıqabulda hərraca çıxarılıb. Bu obyektlərin sahəsi 15-100 kv.metr arasında dəyişir. Təklif olunan belə obyektlər sırasında ən yüksək start qiyməti paytaxtın Yasamal rayonunda yerləşən qeyri-yaşayış obyektinə təyin olunub. Belə ki, əmlak 520 min manat ilkin satış qiyməti ilə hərraca çıxarılıb. Səbayeldə yerləşən 3 qeyri-yaşayış sahəsi 117 min, 105 min və 100 min manata fiziki və hüquqi şəxslərə təklif olunur.

Satışa çıxarılan səhmdar cəmiyyətləri təmir-tikinti, sənaye, aqrar, nəqliyyat, inşaat, istehsal və s. sahələrə aiddir. Müxtəlif şəhər və rayonlarda yerləşən belə iri müəssisələr sırasında paytaxtın Nərimanov rayonundakı "Avtomotoservis", Sabunçu rayonundakı "Material Təchizat" və Səbayel rayonundakı "Şəmkir" ilə yanaşı, regionlarda yerləşən "Bərdə Tikinti Quraşdırma", "Biləsuvar Broyler", "Qax Taxıl", "Salyan Aqrotexservis", "İsmayıllı Sənaye İstehsal" kimi səhmdar cəmiyyətlər var.

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)

**Tel: (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Bakıda usta işlədiyi evin sahibini qətlə yetirdi

**Bakıda qətl törədilib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, yanvarın 21-də Xətai rayonu ərazisində yaşayan Vüqar Qasımovun evində təmir işləri aparan Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş Eldar Babayev münaqişə zəminində ev sahibini bıçaqla qətlə yetirib. E. Babayev könüllü olaraq 37-ci polis bölməsinə gələrək istintaqa təslim olub.**

## Ağcabədidə sexdən təqaüd kartları oğurlandı



**Ağcabədi rayonunda sexdən təqaüd kartları oğurlanıb. "Report"un məlumatına görə, hadisə rayon ərazisində yerləşən Cümşüd Abbasova məxsus sexdə baş verib.**

Belə ki, naməlum şəxs və ya şəxslər tərəfindən hesabında 310 manat olan 2 ədəd danışıq kartı oğurlanıb.

Ağcabədi Rayon Polis Şöbəsinin (RPŞ) əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində kartları oğurlamaqda şübhəli bilinən Laçın rayon sakini Məhəmmədəli İsmayılov tutulub.

Faktla bağlı araşdırmalar davam etdirilir.



## Ərini öldürən qadının məhkəməsi başlayıb

**Bakı Ağır Cinayətlər Məhkəməsində qətldə təqsirləndirilən Nuridə Kərimovanın cinayət işi üzrə məhkəmənin hazırlıq iclası keçirilib. APA-nın xəbərinə görə, hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib.**

Məhkəmə baxışı fevralın 2-nə təyin edilib.

Qətl hadisəsi ötən il iyulun 23-də Ramana qəsəbəsində baş verib. Nuridə Kərimova həyat yoldaşı, 32 yaşlı Vüqar Kərimovu münaqişə zəminində qətlə yetirib.

Məlum olub ki, Vüqar Kərimov Sabunçu qəsəbəsindəki kafelərdən birində dönərçi işləyirmiş.

27 yaşlı qadın bildirib ki, əri gecələr evə sərxoş vəziyyətdə gəlirmiş. İyulun 23-də növbəti dəfə evə içkili halda gələn Vüqar Kərimovla həyat yoldaşı arasında dava düşüb. Ərinin bıçaqla onu öldürəcəyini görən qadın cəld tərpənərək bıçaqla ona zərbələr endirib. V. Kərimov hadisə yerində dünyasını dəyişib.

## Üstünə qaynar su tökülən 2 yaşlı qız ölüb

**Azərbaycanda 2 yaşlı uşaq faciəli şəkildə ölüb. APA-nın məlumatına görə, bir neçə gün əvvəl Samux rayon sakini, 2015-ci il təvəllüdlü Tamara Zaur qızı Mustafayevanın üzərinə qaynar su tökülüb.**

Təcili olaraq xəstəxanaya çatdırılan azyaşlını xilas etmək mümkün olmayıb və o, ötən gün Respublika Yanıq Mərkəzində dünyasını dəyişib.

Faktla bağlı araşdırma aparılır.

## 14 yaşlı qızını boğaraq öldürən anaya 11 il həbs cəzası verilib



**Bakı Ağır Cinayətlər Məhkəməsində qətldə təqsirləndirilən Züleyxa Cəfərovanın cinayət işi üzrə məhkəmə prosesi başa çatıb. APA-nın xəbərinə görə, hakim Əhməd Quliyevin sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.**

Hökmə əsasən, Z. Cəfərovaya 11 illik həbs cəzası verilib.

Qeyd edək ki, ötən il avqustun 3-də Sabunçu rayonunun Balaxanı qəsəbəsində yaşayan Züleyxa Cəfərova evində münaqişə zəminində 14 yaşlı qızı Ehsanə Cəfərovanı yaylıqla boğaraq öldürüb.

Sabunçu Rayon Polis İdarəsinin 12-ci Polis Bölməsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Z.Cəfərova tutulub.

## Bakıda mənzildən içərisində 40 min dollar və 30 min avro olan seyf oğurlandı

**Bakıda mənzildən pulla dolu seyf oğurlanıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, Nərimanov Rayon Polis İdarəsinin 16-cı Polis Bölməsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində yanvarın 15-də rayon ərazisindəki evlərdən birindən içərisində 40 000 ABŞ dolları və 30 000 avro pul olan seyfi oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakinləri Aslan Mikayılov, Royal Kərimli və Abşeron rayon sakini Sadiq Heybətov tutulublar.**

YENİ MÜSAVAT
N 15 (6629) 24 yanvar 2017




# Bakı üzərindən bir gündə 200-dən çox təyyarə keçir

## Ekspert: "Planlı şəkildə olan uçuşlar xüsusi cədvəldə qeyd olunur və bu hər kəsə məlumdur"

**Yanvarın 22-də Heydərabaddan (Hindistan) Moskvaya uçan "Boeing" təyyarəsi Bakıda təcili eniş etməli olub. Buna təyyarənin ön dayaq şassisində yaranmış nasazlıq səbəb olub. Hadisə nəticəsində zərərçəkən olmayıb. Layner yedəklə təmir meydançasına aparılıb.**

Ümumiyyətlə, Bakı üzərindən uçuş edən təyyarələrin paytaxt ərazisində təcili eniş etmə hallarına tez-tez rast gəlinir. Məsələn, ötən ilin yanvar ayında Londondan Hindistanın Mumbai şəhərinə uçan "Air İndia"ya məxsus "Aİ 130" tipli təyyarə də Heydər Əliyev adına Hava Limanına təcili eniş etmişdi. Bundan başqa, ötən ilin sentyabr ayında Əfqanıstana məxsus sərnişin təyyarəsi Kabildən Moskvaya uçarkən texniki nasazlıq baş vermiş və təyyarə ekipajı Azərbaycan ərazisində təcili eniş etmək qərarına gəlmişdi.

Bu kimi faktların sayı kifayət qədərdir və siyahını bir qədər də uzatmaq olar.

Bəs Bakı üzərindən hansı hava xətləri keçir?

Öncə qeyd edək ki, Bakı şəhərinin üzərindən ilk təyyarə 20 oktyabr 1910-cu il tarixində uçub. Mənbələrdə bu hadisə belə təsvir edilir ki, Sergey Utoçkinin idarə etdiyi uşaqsayağı yöndəmsiz və möhkəm olmayan "Farman-4" sistemli fransız biplanı heyrətdən yerində donmuş tamaşaçıların başı üzərində bir neçə dairə vurmuş, sonra isə gurultulu alqışlar altında yerə enmişdi. Azərbaycanın mülki hava donanmasının tarixində yeni keyfiyyətli dövr isə 1970-80-ci illərə təsadüf edir. Bu dövr ərzində Gəncədə, Yevlaxda, Naftalanda, Naxçıvanda, Zaqatalada, Lənkəranda, Ağdamda, Ağstafada və Şəkidə süni örtüklü uçuş-enmə zolaqları ilə təchiz olunmuş hava limanları tikilib.

Bu gün isə Azərbaycanın mülki aviasiyası Beynəlxalq Mülki Aviasiya Təşkilatının (İCAO) standartlarına uyğundur, "Azərbaycan Hava Yolları" (AZAL) aviaşirkəti isə İCAO, İATA, ECAC, Dövlətlərarası Aviasiya Komitəsi kimi tanınmış mülki aviasiya birliklərinin üzvüdür. AZAL-ın təyyarələri dünyanın onlarla şəhərinə müntəzəm uçuşlar yerinə yetirir, "SW Airlines"in yük aviaşirkətinin hava yolları isə bütün qitələrin üzərindən keçməklə yüzə qədər ölkəyə uzanmışdır.

**Aviasiya məsələləri üzrə ekspert Ədalət Əliyev "Yeni Müsavat"a bildirib ki, Bakının üzərindən hər gün xeyli sayda təyyarə keçir. Bunların sayı konkret deyil və dəyişə bilər:** "Bir var planlaşdırılmış reyslər, bir də var ki, plandan əlavə reyslər. Buna görə də Bakı üzərindən bir gün 200, digər gün isə 400-500 təyyarə uça bilər. Bütün bu marşrutlar isə beynəlxalq səviyyədə təşkil olunur. Bu marşrutlardan hüquqa uyğun olaraq, hər kəs istifadə edə bilər. Hüquqi yol dedikdə, diplomatik yolla alınmış icazələr, bu məsələdə beynəlxalq hüququn tələbləri nəzərdə tutulur. Planlı şəkildə olan uçuşlar xüsusi cədvəldə qeyd olunur və bu hər kəsə məlumdur. Plandan əlavə uçuşlar isə qabaqcadan razılaşdırılmalıdır".

**Milli Aviasiya Akademiyasının hüquqşünaslıq kafedrasının müdiri, professor İbrahim Quliyev mövzu ilə bağlı qeyd edir ki, qəbul olunmuş Çikaqo Konvensiyasının müddəalarında nəzərdə tutulur ki, başqa dövlətlərin ərazisi üzərindən və ya ərazisinə, həmin dövlətin xüsusi icazəsi olmadan müntəzəm uçuşlar həyata keçirilə bilməz:** "Müntəzəm uçuşların həyata keçirilməsi, bir qayda olaraq bu məqsədlə xüsusi təyin olunmuş aviasiya müəssisələri tərəfindən bağlanılan müqavilədə, göstərilən hava xətləri üzrə yerinə yetirilir. Praktiki olaraq, bağlanılan hər hansı ikitərəfli müqavilələrdə belə müddəa nəzərdə tutulur ki, razılığa gələn hər bir tərəfin öz ərazisi üzərindən xarici dövlətlərə məxsus olan hava gəmilərinin uçuşlarının marşrutlarını müəyyən etməyə səlahiyyətləri vardır. İkitərəfli müqavilələrdə hava xətləri üzrə uçuşların təhlükəsizliyini təmin etməyə yönəlmiş bir sıra qarşılıqlı vəzifələr nəzərdə tutulur. İlk əvvəl tərəflər təyin olunmuş aviasiya müəssisəsinin hava gəmilərini, hava xətlərinin istismarına zəruri olan yerüstü radio, işıq texnikası və digər aeronaviqasiya avadanlığı ilə təmin etməlidir".

Onu da qeyd edək ki, hazırda "Azərbaycan Hava Yolları" QSC (AZAL) 32 şəhərə daimi uçuşlar həyata keçirir.

❑ **Əli RAİS**

# Ərzaqların başında gələn nemət - çörək haqda hər şeyi bilirikmi?

## Həkimlərə görə, çörəyi rasionundan çıxaran insan onunla birlikdə bir çox xəstəliyi də qovmuş olur...

**Çörək süfrələrimizin vazkeçilməz nemətidir. Kimimiz çörəyi isti-isti yeyir, kimimiz üzərində yağ pendirlə, kimimiz isə heç nəsiz yeməyi xoşlayırıq. Çörək yeməyəndə isə çox zaman özümüzü doymamış hiss edirik. Çörəyin varlığı bolluğun, rifahın varlığı kimi dəyərləndirilir. Onun ərsəyə gəlməsində çox əziyyət çəkilir, vəsait sərf edilir.**



Ancaq min bir əziyyətlə başa gələn bu neməti bir sıra dietoloqlar və həkimlər sağlamlıq üçün zərərli hesab edir. Məşhur rus alimi A.P.Çuprin yazırdı ki, elmin hələ mövcud olmadığı dövrdə insanın yüzlərlə qida arasında məhz çörəyə üstünlük verməsi bəşəriyyəti çox mürəkkəb vəziyyətə salıb. Böyük ərazilərdə hər il nə qədər buğda əkilir, onun istehsalına nə qədər vəsait və əmək sərf olunur. Üstəlik, insan bu qədər enerji sərf edib istehsal etdiyi qidadan xeyir yox, məhz zərər görür...

Çörək yalnız Azərbaycanda deyil, bütün dünya mətbəxlərində var. Müxtəlif ölkələrdə çörəyi müxtəlif üsullarla, müxtəlif unlardan və müxtəlif formalarda hazırlayırlar. Azərbaycanda çörək əsasən buğdadan hazırlanır. Tərkibində karbohidratlar, zülallar, praktiki olaraq bütün əsas vitaminlər və minerallar var. Çörək insana ən fundamental ehtiyacı olan şəkəri verir. Bir insanın orqanlarının və hüceyrələrinin işləməsi, təməl yanacaq maddəsi olan şəkərə bağlıdır və çörək bunun ən ucuz və təmin edilə bilən qaynaqlarından biridir.

Çörək əgər tam buğda unundan hazırlanıbsa, buğdanın sahib olduğu B qrupu vitaminlər və lif baxımından zəngin olar. Ancaq təəssüf ki, müasir dövrdə buğda xüsusi emaldan keçir ki, nəticədə onun ən faydalı hissələri *(taxılın qişaları, rüşeymi)* atılır. Məhz belə emaldan sonra biz ağ un (əla növ un) əldə edirik. Bu gün satılan ağ çörəklər hazırlanarkən istifadə edilən unlar, buğdanın yaxşıca üyüdülməsi ilə əldə edilir. Bu əməliyyatlar əsnasında buğda kəpəyindən, qabığından ayırd edilir. Yəni çörək ağ olsun deyə, bütün faydalı qisimləri atılır. Bundan başqa, çörək daha ağ olsun deyə, bəzilərinin içlərinə ağardıcı xüsusiyyəti olan maddələr əlavə oluna bilər. Nəticədə kimyəvi bir maddə yemiş oluruq. Bu çörəklərin bədənə yalnız enerji təmin etmək kimi bir təsiri var və heç bir vitamin və mineral ehtiva etmir. Yəni boş kalori deyə bilərik.

Daim ağ undan hazırlanmış çörək və s. un məmulatları yeyən insanda piylənmənin, mədə-bağırsaq sistemi xəstəliklərinin və s. pozulmaların riski artır. Təzə yumşaq çörək pis həzm olunur, bir çox hallarda köpə səbəb olur. Ən faydalı çörək emal olunmamış, təmizlənməmiş buğdadan hazırlanır. Belə çörəkdə buğdanın bütün faydalı xüsusiyyətləri saxlanılır.

Arpa unundan və ya arpa ilə buğda unlarının qarışığından hazırlanmış çörək də çox faydalıdır. Biz ona adətən "qara çörək" deyirik. Bu çörək daha gec mənimsənilir və ağ çörəklə müqayisədə onun tərkibində daha çox faydalı maddələr saxlanılır. Buğda kəpəyi əlavə olunmuş çörək də çox faydalıdır. Kəpək mədə-bağırsaq sisteminə müsbət təsir edir, qəbizliyin qarşısını alır, orqanizmdən ziyanlı maddələri xaric edir. Bir sıra həkimlər və dietoloqlar boyat çörəyin daha faydalı olduğunu bildirir, nəinki isti, yumşaq təzə çörəyin. Boyat çörək daha yaxşı mənimsənilir və köp, ağırlıq kimi xoşagəlməz hisslərə səbəb olmur. Bir sıra həkimlər isə mayasız çörəyə üstünlük verməyi tövsiyə edir.

Çörəkdən tam imtina mümkün olmasa da, onun düzgün qəbulu ilə zərərlərinin müəyyən qədər qarşısının alınması mümkün ola bilər. Ekspertlərə görə, çörəyi qida rasionundan çıxaran insan onunla birlikdə bir çox xəstəliyi də qovmuş olur. Britaniyanın Ərzaq Standartları Qurumu (FSA), çörək və kartof kimi nişasta tərkibli yeməklərin yüksək temperaturda bişirilərkən akrilamid adlı kimyəvi maddənin ifraz olunduğunu və bu maddənin də xərçəngə yol aça biləcəyi barədə xəbərdarlıq edib. FSA riskləri azaltmaq üçün bu cür qidaların bişirmə təlimatlarına diqqətlə əməl edilməsini və bu cür yeməkləri rəngi tündləşməyənədək bişirilməsini tövsiyə edib. Məsələn, çörək qızardanda akrilamid maddəsi də üzə çıxır. Qızardılan çörəyin rəngi nə qədər tünd olarsa, ortaya çıxan akrilamidin miqdarı da bir o qədər yüksək olur.

Türkiyəli məşhur professor Canan Efendigil isə çörəyin ən az siqaret qədər zərərli olduğunu bildirib. Çörəkdən imtina etməklə insanların səhhəti ilə bağlı bir çox problemlərinin də həllinin mümkünlüyünü vurğulayır. Ümumiyyətlə, dilimizdə 4 dad alma duyğusu var; şirin, acı, turş və duzlu. Çörəyin içindəki şəkəri düşünsək, şəkər ağıza alındığı zaman digər 3 dad alma duyğusunun üzərini örtür və o duyğuları təsirsiz hala gətirir. Bütün dünya həkimləri dad alma duyğusunun insanda asılılıq yaratdığını bildirir. Çörək, tort, şirin və ya duzlu məhsullarda fruktoza var. Onun üçün insanlar kilo problemlərini həll etməyə çalışarkən, öyrəşdiyi qidalardan, xüsusən də çörək və şirin qrupuna daxil olan qidalardan imtina etməkdə çətinlik çəkirlər. Eynilə heroin kimi beyin "çörəksiz edə bilmərəm" deyir.

Çörəkdən imtina etmək asan olmadığı üçün çox zaman həkimlər früktozanı ən şirin zəhər adlandırırlar.

Əslində insanlar çörək yemədən də doya bilərlər. İnsan heç çörək yemirsə, ancaq çörək yerinə keçə biləcək taxıl qrupu yeməklərdən yeyirsə *(qarğıdalı, kartof, plov, şorba)* hər hansı bir itkisi olmaz. Əgər insanlar balanslı qidalansa, doyarlar. Bunun üçün qabınızı dörd yerə bölün: 4/1-i taxıl qrupu yeməklərdən ibarət olsun - çörək, plov, makaron, şorba və ya kartof. 4/1-i ət qrupu yeməklərdən ibarət olsun - ət, toyuq, balıq, yumurta və ya pendir. 4/1-i tərəvəz və salatdan, sonuncu 4/1 hissə isə qatıq və ya ayran olsa, insanlar tam doymuş və sağlam qidalanmış olarlar.

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT

Son səhifə

N 15 (6629) 24 yanvar 2017



# Xarici turistlərdən qorxduğu üçün pulsuz bilet verdi

On minlərlə turist 23 yanvarda Tokionun Sindzyuku-qeyen parkına pulsuz girib. Buna bilet satıcısının xaricilər qarşısında qorxusu səbəb olub. Lenta.ru saytının xəbərinə görə, 2014-cü ildə xarici turistlərdən biri bilet satıcısının üstünə qışqırıb. Bu insident yaşlı park işçisini o qədər qorxudub ki, bundan sonra xaricdən gələn ziyarətçilərdən pul almayıb. O, xarici ziyarətçilərə havayı bilet verir, daha sonra isə bu barədə məlumatı bazadan silirmiş. 2016-cı ilin sonunda Sindzyuku-qeyen parkının başqa bir işçisi bu durumu araşdırıb və məlum olub ki, 2014-cü ilin dekabrından 2016-cı ilin dekabrına qədər 160 min əcnəbi turist parka pulsuz daxil olub.

Günahkar bilet satıcısını bir aylıq məvacibi məbləğində cərimələyiblər. İctimaiyyətə onun etdiyi əməllər məlum olanda isə o, işdən çıxıb və dəymiş ziyanın öz yığımı hesabına ödənilməsini istəyib. 2016-cı ildə sözügedən parkı 2 milyon nəfər ziyarət edib.

# Uşaqlar ona görə dacəllik edir ki...

Türkiyəli uşaq psixoloqları müəyyənləşdirib ki, 3-11 yaşlı uşaqların valideynlərinin sözünə qulaq asmaması, onları incitməsi daha çox onların diqqət çəkmək cəhdi ilə bağlıdır. Xüsusən anaların iş qadını olduğu bu zamanda uşaqlar onlardan "oğurlanan" vaxta görə mübarizə aparırlar. Psixoloqlar müəyyən edib ki, uşaqlar bu cür asi davranışları ilə analarının onlar barədə daha çox düşünməsinə nail olmaq istəyir. Araşdırmaya rəhbərlik edən psixoloq Nadir Özdilek açıqlayıb ki, analar məhz uşaqlarının əcaib hərəkətlərindən sonra sanki silkələnir: "Analar məhz bu zaman uşaqlarına az vaxt ayırdıqlarının fərqinə varır və onların tərbiyəsinə, davranışına xüsusi diqqət ayırır. Amma uşaq bunu daim təkrarlayırsa, onu psixoloq yanına aparmaq lazımdır".



# İspanın vəsiyyəti dünyaya səs saldı

Uşaqlarının vəfasızlığı ucbatından onları mirasından məhrum edən ispan bir ata ölüncə məzar daşına "Atanızı aldınız" mesajı yazdırıb. İspaniyanın Avila şəhərində uşaqlarının vəfasızlığını bütün dünyaya çatdıran kişi özünə barmaq işarəsi formasında olan məzar daşı hazırlatdırıb. Ölən ispan baş daşına "Kimi çiçəklər gətirərək, kimi də dualar edərək məni ziyarət edəcəksiz. Amma səfərinizin sonu burda bitəcək. Sizi öz yanımda gözləyirəm" sözlərini yazdırıb. Bu da onun ailə üzvlərindən və qohumlarından çox yanıqlı olduğunu göstərib. Amma bu baş daşından xəbər tutanlar bir-bir qəbiristanlığa axın etməyə başladığı üçün yerli bələdiyyə məsələni nəzarətə götürüb və axının qarşısını alıb. Bundan başqa, üç barmağın konfiqurasiyasından ibarət baş daşı bir çoxlarının narazılığına səbəb olsa da, qəbiristanlıq rəhbərliyi onu dəyişdirə bilməyəcəyini açıqlayıb: "Bu, onun ölümündən öncə son vəsiyyəti idi və yerinə yetirilməli idi".





# Maşını qəzaya uğradı, 2 sutka maşında qaldı

ABŞ-ın Texas ştatının sakini qəzaya uğradığı maşının içində 2 sutka keçirib. Lenta.ru saytının yaydığı xəbərə görə, hadisə ötən il 26 iyunda baş verib. 75 yaşlı Vanda Mobli ailəsinin yanına gedəndə qarşıdan gələn maşınla toqquşmamaq üçün qəfil dönüş edib və toqquşub. Nəticədə maşın uçuruma yuvarlanıb. Moblinin dediyinə görə, yoldan gedən maşınların səsini eşidirmiş, amma maşından çıxıb zəng etmək, yardım istəmək üçün gücü olmayıb. Günorta havanın temperaturu 32 dərəcəyə qədər artdığı üçün qadın maşınında qalan az miqdarda sudan qənaətlə istifadə edirmiş. Qadının axtarışı ilə ona aramsız zəng edib, cavab ala bilməyən qohumları məşğul olub. Bazar günü nəvəsinin həyat yoldaşı şossedə maşınla vurularaq əzilmiş bir yol nişanı görüb şübhələnib. Yol nişanından bir az aralıdakı uçurumda isə nənəsinin maşınını görüb.




**QOÇ** - Ümumi ovqatınızda mənfi fəsadlar nəzərə çarpacaq. Lakin bu, saat 14-dən o yana keçməyəcək. Çünki qalan müddətdə Göy qübbəsi var gücü ilə sizi sevindirəcək. Naşükürlük etməyin!

**BUĞA** - Fəaliyyətlə bağlı bəzi uğurlarınız gözlənilir. İşinizdə əsaslı dönüş yaratmaqla buna nail ola bilərsiniz. Sənədləşdirmə məsələlərinə maksimum diqqətlə yanaşın. Uzaq yola çıxmaq məsləhət görülmür.

**ƏKİZLƏR** - Bacardığınız qədər oturaq işlərə ara verin. Ən azı ona görə ki, bu təqvimdə qazandığınız uğur və zövq yalnız səyyar fəaliyyətlə bağlı olacaq. Qonaq getmək, gəzintiyə çıxmaq da olar.

**XƏRÇƏNG** - Qərar verməkdə başqalarının fikirlərinə aludə olmasanız, bu təqvimdən razı qalacaqsınız. İndiki məqamda əlçatmaz olan arzuların arxasınca qaçıb əbəs yerə vaxt itirməyin.

**ŞİR** - Əməkdaşlıq zəminində müəyyən uğurlar əldə edə bilərsiniz. Hətta yeni iş üslubuna keçmək də olar. Amma çalışmalısınız ki, təşəbbüskarlıq qarşı tərəfdən irəli gəlsin.

**QIZ** - Nahara qədər əsəblərinizi qoruyun ki, sonrakı müddətdə qarşınıza çıxan şanslardan lazımi qədər bəhrələnə biləsiniz. Saat 16-18 arası perspektivli danışıqlarda bəxtiniz gətirə bilər.

**TƏRƏZİ** - İqlimin qeyri-stabilliyi səhhətinizlə bağlı narahatlıq yaratmasın deyə, özünüzü buna hazırlamalısınız. Göy qübbəsi bu təqvimdə maddi durumunuzun yaxşılaşacağını bəyan edir. Amma yeni işlərə başlamamalısınız.

**ƏQRƏB** - Ümumi görüntü gərginliklə müşayiət olunsa da, əməkdaşlıq zəminində sizi böyük uğurlar gözləyir. Boş oturmaq haqqında düşünməməlisiniz. Nə qədər aktiv olsanız, nailiyyətləriniz də artacaq.

**OXATAN** - Bu təqvimdə bir qədər neytral mövqedə dayanmağınız məsləhət görülür. Nahardan sonra ciddi və riskli işlərə qol qoymayın. Unutmayın ki, gün ərzində mənfi yüklü Ay bürcünüzdə meydan sulamaqdadır.

**OĞLAQ** - İşgüzar əlaqələrdə, eləcə də qarşılıqlı sövdələşmələrdə tədbirli olun. Çünki ulduzların düzümü bu istiqamətdə bəzi maneələrin olacağından xəbər verir. Yalan vəd verməyin.

**SUTÖKƏN** - Olduqca təzadlı bir təqvimdir. Günün ümumi mənzərəsi atacağınız addımlardan birbaşa asılı olacaq. Həmkarlarınızla mübahisələrə yol verməyin. Nahardan sonra ziyarətgahlara gedin.

**BALIQLAR** - Risk etməyə lüzum yoxdur. Kiminsə təlimatlarına aludə olmaqdansa, reallığa uyğun addım atın. Unutmayın ki, indi sizin çıxılmaz vəziyyətə düşməyinizi istəyənlər çoxdur.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Çində 19 binanı 10 saniyə içində partlatdılar



Çinin Uxan şəhərinin mərkəzində 10 saniyəyə 19 binanı partladıblar. Hadisə 21 yanvarda, saat 11.50-də baş verib. Nəticədə yaşayış binaları yerlə-yeksan olub. Onların yerində müasir işgüzar kvartal inşa ediləcək. Orada hündürlüyü 700 metr olacaq binanın tikintisi də nəzərdə tutulub. Hadisə Çin mediasında geniş səs-küy doğurub. Partlayışdan öncə ətraf binalarda yaşayan insanlara bu barədə xəbərdarlıq edilsə də, uşaqların qorxması və səs-küyün iri masştabı əhatə etməsi narazılıq doğurub.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.100

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.